# QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 107 (6307) 19 iyun 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycanda turizmin inkişafı böyük vüsət alıb

*Prezident İlham Əliyev Bakıda "Intercontinental" otelinin açılışında iştirak edib*



*Bax 2*

## Milli Məclisdən dünyaya mesaj - Azərbaycan-Türkiyə daim bir yerdədir

*Bax 6*



## Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən paneldə çıxış edib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində...



*Bax 5*

## Gürcü ekspert: Türkiyə Prezidentinin Şuşaya səfəri regionda yaranmış yeni reallıqların göstəricisidir



Rəcəb Tayyib Ərdoğanın azərbaycanlılar üçün önəmli şəhər olan Şuşaya səfəri xarici ölkənin dövlət başçısı kimi, Türkiyə Prezidentinin Qarabağa ilk səfəri kimi tarixə düşüb...

*Bax 11*

## XİN: Ermənistanın beynəlxalq hüquq normalarından danışması riyakarlığın son həddidir



Beynəlxalq hüququn fundamental normalarını, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını onillikllə ərzində kobud şəkildə pozan, bir milyonadək azərbaycanlının insan hüquqlarını...

*Bax 5*

## DTX Suriyada döyüşmüş azərbaycanlını Ukraynada tutdu



Xarici ölkənin ərazisində qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak edən şəxs məsuliyyətə cəlb olunub. SIA-nın Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən məlumatına...

*Bax 7*

## Rusiya ABŞ-ın nüvə sualtı gəmisinin ovuna çıxdı - Putin əmr verdi!

Qara dənizdə Ukrayna ilə Rusiya arasında başlayan gərginliyə ABŞ da qoşuldu. ABŞ və Rusiya arasındakı gərginlik dünyanın diqqətini çəkdiyi bir vaxtda Putindən çoxdan...

*Bax 7*



## DİQQƏT: Meyvə-tərəvəzə vurulan bu maddə xərçəng yaradır!

*Bax 5*

## İnsan beyni ilə bağlı maraqlı faktlar



*Bax 12*

## Erməni radikalının NATO iddiası: Rusiya politoloqu ifşa etdi



*Bax 7*

## Nobel mükafatı necə yaranıb?



*Bax 16*

# Azərbaycanda turizmin inkişafı böyük vüsət alıb

## *Prezident İlham Əliyev Bakıda "Intercontinental" otelinin açılışında iştirak edib*











***İyunun 18-də Bakıda beşulduzlu "Intercontinental" otelinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***

Əvvəllər bu ərazidə "Cənub" mehmanxanası yerləşirdi. İndi onun yerində gözoxşayan memarlıq üslubunda yeddimərtəbəli "Intercontinental" oteli inşa olunub. Bu gün dünyada pandemiyanın davam etməsinə, iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə mühüm sosial-iqtisadi infrastruktur layihələrinin icrası uğurla davam edir. Müasir səviyyədə inşa olunan "Intercontinental" otelinin istifadəyə verilməsi bunun daha bir təzahürüdür.

Ölkəmizdə turizmin böyük gələcəyinin olduğunu daim vurğulayan dövlətimizin başçısı hələ neçə illər bundan əvvəl Azərbaycanda ən müasir otellərin, o cümlədən məşhur dünya brendlərinə aid mehmanxanaların inşasının vacibliyini qeyd edirdi. Həyat Prezident İlham Əliyevin uzaqgörənliyini bir daha təsdiqlədi. Pandemiyadan əvvəlki son illərdə Azərbaycanda turizmin inkişafı böyük vüsət aldı. Lakin bütün dünyada olduğu kimi, COVID-19 virusunun sürətlə yayılması ölkəmizdə də turizmin inkişafına ciddi maneə yaratdı. İndiki şəraitdə yeni otellərin istifadəyə verilməsi Azərbaycanda uzaqgörən siyasətin həyata keçirilməsinin bariz göstəricisidir.



Yaradılan müasir otel idarəçiliyi ölkəmizə beynəlxalq səviyyəli bir çox mehmanxana brendlərinin gəlməsi ilə nəticələnib. Bu isə bütün sahələrdə olduğu kimi, turizm, o cümlədən bu sektorun əsasını təşkil edən müasir otel sisteminin yaradılması istiqamətində dövlət səviyyəsində görülən işlər hesabına mümkün olub. Ümumilikdə, müasir otellərin istifadəyə verilməsi bir neçə mühüm amili özündə ehtiva edir. Onlar turizm sektorunun inkişafına dəstək, otel biznesinin genişləndirilməsi, turistlərin rahatlığının təmin olunması, yeni iş yerlərinin yaradılması və Bakının ümumi inkişafına verilən töhfədir.

"Intercontinental" otelində ümumilikdə, müxtəlif kateqoriyalara aid 126 otaq var. Otaqların hər birində qonaqların özlərini maksimum rahat hiss etməsi üçün bütün zəruri şərait yaradılıb. Oteldə turistlərin və paytaxt sakinlərinin xidmətində olacaq restoranlar, konfrans zalları və digər infrastruktur mövcuddur.

Burada "Lamborghini Bakı Mərkəzi"nin satış salonu da yaradılıb. Salonda müştərilərə yüksək xidmət göstərmək üçün geniş imkanlar var.

# Şuşa Bəyannaməsi - dövlətlərarası münasibətdə yeni mərhələ

## *Prezident İlham Əliyev: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk"*









Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artması, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. "Bir millət, iki dövlət", deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətlər bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə növbəti səfəri qardaşlıq, dostluq mesajı idi."Mən mətbuat konfranslarında, Öz çıxışlarımda dəfələrlə demişəm ki, bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir. Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Bu fikirləri dövlət başçısı Şuşa Bəyannaməsinin imzalanmasından sonra mətbuata bəyanatında bildirib.

Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. İyunun 15-i Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. "Bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır", deyən Cənab Prezident bildirib ki, Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir: "Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır".

### "BU GÜNƏ QƏDƏR TÜRKİYƏ VƏ AZƏRBAYCAN BÜTÜN MƏSƏLƏLƏRDƏ BİR YERDƏDİR, BUNDAN SONRA DA BU, BELƏ OLACAQ"

Dövlət başçısı "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir", deyərək bildirib ki, azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir. Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır. "Bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq", deyən Cənab Prezident ikinci önəmli məsələnin nəqliyyat məsələsi olduğunu diqqətə çatdırıb: "Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır".

### "ŞUŞADA DALĞALANAN AZƏRBAYCAN VƏ TÜRKİYƏ BAYRAQLARI BİZİM BİRLİYİMİZİ GÖSTƏRİR"

Azərbaycanın 44 günlük Vətən müharibəsində Türkiyə qardaş, dost ölkə olaraq Azərbaycanın yanında oldu. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Cənab Prezidentin vurğuladığı kimi, "Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı, durdurdu. Dedi ki, Türkiyə Azərbaycanın yanındadır və müharibənin ilk saatlarından son dəqiqələrinə qədər əziz qardaşımın və Türkiyə Cümhuriyyətinin, qardaş türk xalqının dəstəyi bizə əlavə güc verirdi. Bu siyasi və mənəvi dəstək bizi ruhlandırırdı".

"Şuşa əyilmədi, öz milli ruhunu qoruya bildi, ləyaqətini qoruya bildi və bizi gözləyirdi"

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət, ölkənin gücü, iqtisadi inkişafı, dünya birliyində yeri və nizami, mütəşəkkil milli ordunun şücaəti nəticəsində Şuşa işğaldan azad olundu. Özü də çox ağır döyüş yolu ilə. "Şuşa tarixi Azərbaycan şəhəridir. Çünki 1752-ci ildə Pənahəli xan bu şəhərin təməlini qoydu və ondan sonra bütün dövrlərdə Şuşada yaşayan əhalinin 98 faizi azərbaycanlılar idi və 30 il işğal altında qalmasına baxmayaraq Şuşa əyilmədi, öz milli ruhunu qoruya bildi, ləyaqətini qoruya bildi və bizi gözləyirdi. Biz də gəldik və Şuşanı azad etdik", deyə Prezidenti İlham Əliyev bildirib.

İkinci Qarabağ müharibəsi tarixdə qaldı, 44 günlük müharibə nəticəsində Ermənistan ordusu tam məhv edildi. "İndi isə yeni dövr başlayır", deyən Cənab Prezident Şuşa şəhərinin ermənilər tərəfindən çox pis vəziyyətə salındığını diqqətə çatdırıb. İşğaldan azad olunan məkanlarda məscidlərin bərpası ilə bağlı müvafiq göstərişlər verilib və ilkin araşdırmalar aparılır. Ermənilər Şuşada 28 il ərizində bütün tarixi abidələrimizə qarşı dağıdıcı mövqedə olublar. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olan tarixi sarayı da dağıdıblar. Azərbaycanın mədəni paytaxtı və bütün Qafqazın incisi hesab olunan Şuşa şəhərində infrastruktur layihələrin icrasına başlanılıb. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin tarixi və dini abidələrinin, muzeylərinin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Mediada islahatlara doğru” silsilə seminarlar başlayıb



Dünən ADA Universitetin İxtisasartırma Proqramları və MEDİA agentliyinin birgə təşkilatçılığı ilə 1 aylıq silsilə seminarlara start verilib. SIA-nın verdiyi məlumata görə, seminar silsiləsinin açılış mərasimində ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, ADA Universitetinin prorektor müavini, İxtisasartırma Proqramlarının rəhbəri Aygün Hacıyeva, Proqram Administratoru Aliyə Ağalarova, ADA Universitetinin İctimai və Beynəlxlaq münasibətlər məktəbinin müəllimi Şəfəq Mehrəliyeva və digərləri iştirak edirlər.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov “Media haqqında” qanun layihəsi: yeni imkanlar və istiqamətlər mövzusunda çıxış edib. Qanun layihəsində yer alan müddəalar barədə media nümayəndələrinə ətraflı məlumat verilib. Bildirilib ki, yeni sənəd media sahəsində ictimai münasibətlər sistemini tənzimləyən yeni normativ hüquqi aktın hazırlanmasını nəzərdə tutur. Vurğulanıb ki, qanun layihəsinin əsas məqsədi bütün media subyektlərinin, o cümlədən yeni yaranmış online media subyektlərinin də fəaliyyətinin və hüquqlarının müəyyən olunmasıdır. Daha sonra seminar iştirakçıları ilə qanun layihəsi ətrafında müzakirələr aparılıb.

Tədbirin ilk seminarında ADA Universitetinin İctimai və Beynəlxlaq münasibətlər məktəbinin müəllimi Şəfəq Mehrəliyeva “Müasir media mühitinə baxış”, “Mediada gündəmin qurulması”, “Jurnalistika və İctimai Əlaqələrin kəsişməsi”, “Ənənəvi və sosial mediada jurnalistika”, “Jurnalistika mədəniyyəti: dəyərlər, etik yanaşmalar və demokratiya” mövzularında çıxışlar edəcəklər.





Qeyd edək ki, seminarların təşkilində məqsəd müasir media mühitinə birgə nəzər salmaq, media sahəsində innovativ təcrübələri araşdırmaq və mövcud media nəzəriyyələrinə uyğun ölkədə media islahatları prosesinə təkan verməkdir. İyunun 14-dən iyulun 10-dək davam edəcək seminarlarda 75 media qurumunun rəhbər üzvünün iştirakı nəzərdə tutulub. Seminarlar zamanı iştirakçılar qarşısında həm yerli, həm də xarici, o cümlədən Al Jazeera və Haber Global-ın mütəxəssisləri təcrübələri ilə bölüşəcəklər. 1 aylıq seminarın sonunda iştirakçılara sertifikatlar veriləcək.

## Əli Həsənov: Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə əlaqələrini əbədiləşdirdi

***“15 İyun Milli Qurtuluş Günündə Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında müttəfiqlik münasibətlərini tənzimləyən Şuşa Bəyannaməsi imzalandı. Bu sənəd tarixi sənəddir. Ümumiyyətlə, sənəddə iqtisadi, siyasi, humanitar, hərbi, informasiya mübadiləsi və digər məsələlər öz əksini tapıb”. Bu fikirləri “Yeni TV”yə açıqlamasında Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü Əli Həsənov bildirib.***




Onun sözlərinə görə, bu sənədin əsas canı, ürəyi hərbi müttəfiqliklə bağlıdır: “Şuşa Bəyannaməsində qeyd olunur ki, Türkiyə və Azərbaycanın ərazi bütövlüyünə hər hansı bir üçüncü dövlət, yaxud dövlətlər müdaxilə edərsə, bu iki dövlət öz sərhədlərini, ərazi bütövlüyünü qorumaq üçün bir-birinə kömək edəcək. Bəyannamənin əsas canı budur”.

Bəyannamədə Qars müqaviləsinə istinad olunduğunu deyən Ə.Həsənov bildirib ki, 1921-ci ildə, 100 il bundan öncə imzalanmış Qars müqaviləsi ilə Şuşa Bəyannaməsi arasında böyük fərq var: “Qars müqaviləsinin 3-cü əlavəsinə görə, Naxçıvan vilayətinin tam sərhədləri müəyyənləşib. Bu sərhədlər çərçivəsində Naxçıvan Muxtar vilayəti yaradılıb. Əgər torpaqlarımızın işğalı zamanı Ermənistan Naxçıvana hücum etsəydi, Qars müqaviləsi Türkiyəyə hərbi müdaxilə etmək imkanı verirdi. Şuşa Bəyannaməsi Azərbaycan ərazisinə hər hansı bir hərbi təcavüz olarsa, Türkiyəyə hərbi müdaxilə imkanı, hüququ verir”.

Bəyannamənin Şuşada, məhz iyunun 15-də imzalanmasına gəlincə, YAP Veteranlar Şurasının üzvü deyib: “Ulu öndər Heydər Əliyev 15 iyun 1993-cü ildə Azərbaycanı dövlət olaraq dağılmaqdan, xəritədən silinməkdən xilas etdi. 15 iyunda Şuşada imzalanan Bəyannamə isə Azərbaycana müdaxilə olunmasının qarşısını alan hüquqi bazanı yaratdı. Ermənistan heç bir halda Azərbaycana qarşı hərbi təcavüz edə bilməyəcək. Çünki qarşısında Azərbaycanla yanaşı, hegemon Türkiyə dövləti var. Bəyannamənin Şuşada imzalanması böyük rəmzi məna daşıyır. Azərbaycan və Türkiyə Prezidentləri bu böyük tarixi sənədi imzalamaqla dünyaya mesaj verdilər ki, bura Azərbaycan torpağıdır. Şuşa Azərbaycan şəhəridir”.

Siyasi partiyaların Şuşa Bəyannaməsi ilə əlaqədar yaydığı bəyanata toxunan Ə.Həsənov bildirib ki, əvvəllər ölkədə fəaliyyət göstərən bəzi siyasi partiyalar müəyyən mövcud problemlərdən iqtidar əleyhinə istifadə etməyə çalışırdılar: “Cənab Prezident İlham Əliyev bu problemlərin hər birini həll edib. Onların əlində yeganə bir bəhanə qalmışdı. Bu da torpaqlarımızın işğal altında olması idi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə bu problem də həll olunub. İndi siyasi partiyaların deyiləsi sözü qalmayıb. İki partiyanın bəyanata qoşulmaması isə düşmənçilikdir. Başa düşə bilmirəm ki, hansı əsasla bəyanata imza atmayıblar”.

## Rauf Əliyev: “Azərbaycanın qazandığı tarixi Zəfərdən sonra bölgənin yeni inkişaf dövrü başlayıb”



**“Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın Milli Məclisində çıxışı böyük tarixi əhəmiyyət daşıyır. Cənab Ərdoğan çıxışında bəyan edib ki, Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və eləcə də dünyaya gətirəcəyi faydaların dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Bu Zəfərlə Qarabağın hər yerinə sabitlik, əmin-amanlıq və ümid hakim olub”. Bu fikirləri Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rauf Əliyev deyib.**

Deputat bildirib ki, Azərbaycanın qazandığı tarixi Zəfərdən sonra bu bölgənin yeni inkişaf dövrü başlayıb. Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəyə gətirəcəyi faydaların miqyasını təsəvvür etmək belə mümkün deyil. Yaranmış yeni reallıqlar Azərbaycan ilə birlikdə eyni zamanda Ermənistan üçün də yeni bir dövrün başlanğıcı ola bilər. Ermənilər özləri özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Millət vəkilinin sözlərinə görə, Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Milli Məclisdəki çıxışında ən mühim məqamlardan biri ölkələrin inkişafına əlavə imkanlar yaradacaq altı ölkənin iştirakını nəzərdə tutan yeni beynəlxalq əməkdaşlıq platformasının yaradılması ilə bağlı fikirləridir: “Təklif olunur ki, altı ölkə-Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan bu yeni əməkdaşlıq platformada birləşsin. Bununla da artıq bu regionda sabitlik bərqərar olacaq. Davamlı sülhə gedən yol regiondakı bütün xalqların və dövlətlərin qarşılıqlı etimad və əməkdaşlığından keçir. Belə bir mühitin yaranması üçün ən ciddi əsaslar Azərbaycanın zəngin tarixi, mədəniyyəti və Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən hərtərəfli düşünülmüş, balanslaşdırılmış dövlət siyasətidir”.

# XİN: Ermənistanın beynəlxalq hüquq normalarından danışması riyakarlığın son həddidir



Beynəlxalq hüququn fundamental normalarını, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını onilliklə ərzində kobud şəkildə pozan, bir milyonadək azərbaycanlının insan hüquqlarını heçə sayan Ermənistan XİN-inin indi beynəlxalq hüquq normalarından danışması riyakarlığın son həddidir. SIA-nın məlumatına görə, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan XİN-in Şuşa Bəyannaməsi ilə bağlı açıqlamasına dair şərhində deyilir.

Açıqlamada qeyd edilir ki, Azərbaycan və Türkiyə Prezidentləri tərəfindən imzalanmış Şuşa Bəyannaməsini şərh edərək bu sənədin erməni xalqına qarşı yönəldiyini iddia edən Ermənistan XİN-i hələ də Ermənistanın onilliklər ərzində davam edən təcavüzkar siyasətinin, qonşu dövlətin ərazilərinə olan iddialarının, xalqın rifahına deyil, bir qrup insanın maraqlarına xidmət edən siyasət yürütməsinin və nəhayət, sərgilədiyi revanşist mövqeyinin məhz erməni xalqına qarşı olduğunu dərk etmir. Ermənistanın bu barışmaz mövqeyi bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına başlıca maneədir:"Beynəlxalq hüququn fundamental normalarını, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını onilliklə ərzində kobud şəkildə pozan, bir milyonadək azərbaycanlının insan hüquqlarını heçə sayan Ermənistan XİN-inin indi beynəlxalq hüquq normalarından danışması riyakarlığın son həddidir. Beynəlxalq hüquqa istinad edən Ermənistan, ilk növbədə ona hörmət etməyi öyrənməlidir.

Azərbaycan və Türkiyə liderləri tərəfindən təklif edilən regional əməkdaşlıq platformasını rədd edən Ermənistanın XİN-in, bunu "erməni xalqına qarşı təhlükə" və "bölgə üçün təhdid" bəhanələri altında təqdim etməsi isə Ermənistanın sülh, əməkdaşlıq, inkişaf meyllərindən nə qədər uzaq olduğunu açıq şəkildə nümayiş etdirir.

Azərbaycanın ərazilərinin işğaldan azad edilməsi ilə bölgədə yeni vəziyyət formalaşıb və regional əməkdaşlığın həyata keçirilməsi üçün unikal imkanlar yaranıb. Bu vəziyyəti dərk edərək, əməkdaşlıqdan faydalanmaq və ya bunun əksi artıq Ermənistanın verəcəyi qərardır. Azərbaycan və Türkiyə isə Şuşa Bəyannaməsində də ehtiva olunduğu kimi, "beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərini davam etdirəcəklər".

# Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən paneldə çıxış edib




Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Antalya Diplomatiya Forumu çərçivəsində təşkil olunan paneldə çıxış edib. AZƏRTAC xəbər verir ki, "Virtual dünyada saxta xəbərlər" mövzusunda keçirilən paneldə hazırda qlobal problemə çevrilən saxta, uydurma informasiyaların yayılması, onun yaratdığı təhlükələr və vəziyyətdən çıxış yolları müzakirə olunub.

Paneldə münaqişələrin qarşısının alınması və erkən xəbərdarlıq mərkəzinin prezidenti Lulian Cifunun, tanınmış yazıçı, Portuqaliyanın keçmiş Avropa naziri Bruno Macaesin, Qətərin xarici işlər nazirinin köməkçisi və Xarici İşlər Nazirliyinin sözçüsü Lolvah Rashid Al-Khaterin çıxışları dinlənilib.

Paneldə çıxış edən Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev ölkəmizin müxtəlif vaxtlarda müəyyən dairələr tərəfindən məqsədli şəkildə yayılan "feyk nyus" hücumlarına məruz qaldığını, hətta bəzi xarici kütləvi informasiya vasitələrinin həqiqətə uyğun olmayan həmin informasiyalara istinad edərək Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışdığını bildirib. Təəssüflə qeyd olunub ki, hətta bəzi hallarda Azərbaycan haqqında həqiqi məlumat yayan şəxslərin sosial media hesablarının bağlanması halları da müşahidə olunub.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Düsen Kaseinov, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza, Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdırəli, həmçinin səfirlər, deputatlar, digər nüfuzlu şəxslər paneldə iştirak ediblər. Çıxışlardan sonra suallar cavablandırılıb.

# DİQQƏT: Meyvə-tərəvəzə vurulan bu maddə xərçəng yaradır!

## *Qida mütəxəssisi açıqladı*



"Meyvə və tərəvəzlərə kimyəvi maddələr uzun illərdir ki, vurulur. Sadəcə olaraq indi daha da çoxalıb. Buna səbəb mövsümdə olmayan meyvə və tərəvəzləri yetişdirmək, bəzi meyvə-tərəvəzlərin soyuğa davamlılığı üçün bir çox kimyəvi maddələr vurulur ki, bu maddələr təbii ki, orqanizmə daxil olduqda kifayət qədər öz zərərlərini verir". Bu sözləri SIA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.

Onun sözlərinə görə, meyvə və tərəvəzləri süni şəkildə və geni dəyişdirilmiş orqanizm olan formada da yetişdirirlər ki, bu da birbaşa nəinki xərçəng həmçinin alzaymer, parkinson, maddələr mübadiləsinin pozulması, kəskin allergiyalara da səbəb ola bilər: "Ümumiyyətlə orqanizmə zərər vurmaması üçün biz mütləq şəkildə meyvə-tərəvəzlərimizi yerli və mövsümü olanları seçməliyik. Yalnız bu halda sağlamlıqdan söhbət gedə bilər. Əks halda təbii ki, bu xəstəliklərin müəyyən insana fərqli reaksiyası da ola bilər. Ancaq biz bir gün ərzində bir neçə meyvədən, tərəvəzdən istifadə edirik. Əgər bu həqiqətən də nitratlarla zəngin, düzgün şəkildə yetişdirilməyən, mövsümündə olmayan meyvə və ya tərəvəzdirsə, bu birbaşa orqanizmin zəhərlənməsinə gətirib çıxardır. Ona görə də təbii ki, bu maddələr də həm xərçəngə səbəb olur, eyni zamanda da maddələr mübadiləsinin pozulmasi şəraitində obezliyə, piylənməyə də gətirib çıxardır ki, bu da birbaşa yenə digər xəstəliklərin əlamətlərinə rast gəlmək olar. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl xərçəng xəstəliyi daha yaşlı insanlarda rast gəlinirdisə, artıq indi hətta uşaq yaşlarında xərçəng xəstəliyinə rast gəlmək olur. Bunun da məhz səbəbi anaların hamiləlik dövründə inkişaf prosesində düzgün qidalanmamasıdır".

Məhsəti Hüseynova həmçinin qeyd edib ki, zərərli saydığımız kimyəvi maddələrlə dolu meyvə tərəvəzlər 25 yaşa qədər olan orqanizmə daha çox təsir edir, nəinki həmin yaşdan çox olanlara: "Çünki bir orqanizm 25 yaşa qədər inkişaf prosesindədir və bəzi orqanizmlərdə bu proses 30 yaşlara qədər davam edir. Bu proses zamanı insan orqanizmi onun sağlam olması üçün, gündəlik funksiyalarını yerinə yetirmək üçün sağlam şəkildə, sağlam qidalardan lazımlı qida elementlərini mikro və makro elementlərini almalıdır. Əgər ki, burada həmin vitamin və mineral balansı olan meyvə və tərəvəzlərin zərərlisini kimyəvi maddələrlə olanını istifadə etsə təbii ki, bunun fiziki inkişafına, əzələ skeletinin inkişafına da çox böyük mənfi təsir edəcək. Ona görə də mütləq şəkildə sağlam olmaq üçün bu cür meyvələrdən uzaq durmaq lazımdır. Mağazalarda təbii, mövsümi meyvə və tərəvəzləri bilmək lazımdır. Əgər kimyəvi maddələrlə yetişdirilibsə, bu meyvələr hər biri gözəl görünüşə parlaq rəngə və hamısı eyni boyda olur. Tumlu meyvələrin içi tumsuz olur. Bunlar da artıq həm kimyəvi maddələrlə, həm də geni dəyişdirilmiş orqanizm olaraq yetişdirildiyinin sübutudur".

***Arzu Qurbanzadə***

# Fazil Mustafa: Siyasi partiyalar ümummilli xarakterli məsələlərdə bir araya gələrək ortaq addım atırlar



***Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar ümummilli xarakterli məsələlərdə bir araya gələrək ortaq addım atırlar. Bunu AZƏRTAC-a açıqlamasında Böyük Qurtuluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa bildirib.***

Partiya sədri qeyd edib ki, Prezident Administrasiyasında müvafiq şöbə yaradıldıqdan sonra siyasi partiyaların koordinasiyası işi çox yüksək səviyyədə təşkil olunmağa başlayıb. Hər kəs öz mövqeyində qalmaqla milli məsələlərdə partiyaların bir mövqedən çıxış etməsi ənənə halı alıb. Biz bunun ən bariz nümunəsini 44 günlük Vətən müharibəsində gördük. İndi də ümummilli xarakter daşıyan məsələlərdə siyasi partiyalar bir araya gələrək ortaq addım atırlar. Şuşa Bəyannaməsi də həmin ənənənin müsbət xarakterini göstərdi. Şuşa Bəyannaməsinin tarixi qərar olduğunu vurğulayan F.Mustafa deyib: "Sənədin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək zirvəyə qalxdığını göstərən hadisədir. Partiyalar Bəyannamənin siyasi dəyərini anlayaraq, öz mövqelərini ortaya qoydular. Bu, müsbət tendensiyadır".

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlaqədar iyunun 16-da bəyanat yayıblar.

# Milli Məclisdən dünyaya mesaj - Azərbaycan-Türkiyə daim bir yerdədir

*Prezident Rəcəb Tayyib Ərdoğan: "Qarabağı azad edən Azərbaycanın Milli Məclisində olmaqdan şadam"*

***Dünyada analoqu olmayan qardaşlığın, Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan bu birlik nə dünən olub, nə də bu günü. Sözsüz ki, Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr. Ən əsas amil isə ən çətin anlarda bir-birinin yanında olmaq.***



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir neçə gün öncə Milli Məclisin xüsusi iclasında çıxışı zaman Azərbaycan parlamentində Qarabağın işğaldan azad edilməsindən sonra Azərbaycanın Milli Məclisində olmaqdan şad olduğunu deyib: "Qarabağı azad edən Azərbaycanın Milli Məclisində olmaqdan şadam". Türkiyə Prezidenti R.Ərdoğan bildirib ki, Qarabağın işğaldan azad edilməsi Azərbaycanın müstəqilliyinin 30 ilinin ən önəmili hadisəsidir.

### "Üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq"

"Azərbaycanlı qardaşlarımızla üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq. Canı yananlar, qanı tökülənlər, maddi və mənəvi ziyan çəkənlər sadəcə Qarabağda yaşayan insanlardır. Asan deyil, 30 il". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Milli Məclisində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, 30 ildən sonra işğal altında olan torpaqlar sahiblərinə qovuşdu: "Böyük bir liderlik göstərərək bu zəfəri Azərbaycana qazandıran Ali Baş Komandan İlham Əliyevi bir daha təbrik edirəm".

### Türkiyə Prezidenti məcburi köçkünlərə çağırış edib

Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı bildirib ki, Qarabağ Zəfərindən kimsə narahat olmasın: "Çünki bu Zəfər ədalətin, barışın, qəlbin Zəfəridir".

Onun sözlərinə görə, Qarabağın hər küncünə sükut və ümid hakim olub: "İnşallah sonrakı gəlişimizdə evlərindən didərgin düşən insanların yerlərinə qayıdışının sevincini yaşayacağıq. Onlara mən də çağırış edirəm. Sizin evləriniz bərpa olunur. Bir müddət sonra evinizə qayıdacaqsınız".

Türkiyə Prezidenti Milli Məclisin xüsusi iclasında çıxışı zamanı bildirib ki, Qarabağı birlikdə inşa edəcəyik. Onun sözlərinə görə, Qarabağı və işğal altındakı Azərbaycan torpaqlarını 30 il məhv edənləri görməyənlər, Azərbaycanın azadlıq mücadiləsini əngəlləmək üçün səfərbər olanlar indi gəlib Füzulini, Qarabağı görsünlər: "Hər şey ortadadır. Dünən oraların halını gördük. Azərbaycanlılar 30 il öncə Qarabağdan çıxmaq məcburiyyətində qaldıqda heç bir evi yandırmadılar, çünki insan öz evini yandırmaz, ancaq ermənilər oralardan gedəndə hər şeyi yandırdılar, çünki oralar onların vətəni deyildi. Ancaq biz oraları yenidən inşa edərək, yeni bir Qarabağ ərsəyə gətirəcəyik".

"Şuşa bu gün öz mədəniyyəti ilə ayağa qalxır. Cıdır düzündə təşkil edilən Xarıbülbül festifalı dünyaya verilən açıq bir mesaj idi. Şuşanın gələcəkdə Türk dünyasının paytaxtı olmasını görməkdən məmnun olarıq. Dünyanın 4 tərəfindən olan türk sənət adamlarının Şuşaya gəlməsi Şuşaya gözəl bir salam olardı" - deyə, Ərdoğan əlavə edib.

### Türkiyə Prezidenti Zəngəzur dəhlizindən danışdı

"Zəngəzur dəhlizindən ermənilər də asan şəkildə Moskvaya və bütün dünyaya çıxa biləcəklər, onlar özlərini nə qədər əngəllədiyini görəcəklər". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisin xüsusi iclasında çıxışı zamanı deyib. Türkiyə Prezidenti bildirib ki, regionda yeni altılıq əməkdaşlıq platforması imkanları yaranıb: "Gürcüstanın bəzi sualları var idi və mən Gürcüstanın baş nazirinin son səfəri zamanı ona bunun faydalarını izah etdim. Çünki bu bölgənin sülhə ehtiyacı var, bunu etməliyik. Ermənistanın Azərbaycanla münasibətləri yaxşılaşdıqca biz də lazımi addımlar atacağıq. Türkiyənin Ermənistana faydaları saydıqca bitməz".

### "Bu zəfərdən kimsə rahatsız olmasın, çünki bu, zülmün deyil, sülhün zəfəridir"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı deyib ki, Qarabağ zəfərinin Azərbaycan və dünyaya gətirəcəyi faydalar zaman keçdikcə hiss olunacaq və bu zəfərdən kimsə rahatsız olmasın, çünki bu zülmün deyil, sülhün zəfəridir: "Qarabağın hər küncünə hüzur hakim olub. Azərbaycanlı qardaşlarımız yuvalarına dönəcək. Gələcəkdə buraya yenə gələndə azərbaycanlı qardaşlarımızın öz doğma yurdlarına qayıtmasını görmək bizi şad edəcək. Hazırda yollar sürətlə tikilir, infrastruktur bərpa olunur və bizlər də bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox binalar tikəcəyik".

"Şuşanın gələcəkdə türk dünyasının mədəniyyət paytaxtı olmasını görməkdən məmnun olarıq",- deyən Türkiyə Prezidenti bildirib ki, Şuşa ədəbiyyatın mərkəzi vəzifəsini qoruyub: "Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Natəvanın və digər şairlərin yurdudur. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi bu mənada dünyaya verilən açıq mesajdır. Gələn il Şuşanın türk dünyasının mədəniyyət paytaxtı olmasından şərəf duyarıq. Əlbəttə, Şuşa, Qarabağ deyil, türk dünyasının bütün yerləri böyük şəxsiyyətlər yetişdirib".

### "Yeni bir Qarabağ ərsəyə gətirəcəyik"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxışı zamanı bildirib ki, işğaldan azad olunan əraziləri yenidən inşa edərək yeni bir Qarabağ ərsəyə gətirəcəyik. Onun sözlərinə görə, Qarabağı və işğal altındakı Azərbaycan torpaqlarını 30 il məhv edənləri görməyənlər, Azərbaycanın azadlıq mücadiləsini əngəlləmək üçün səfərbər olanlar indi gəlib Füzulini, Qarabağı görsünlər: "Hər şey ortadadır. Dünən oraların halını gördük. Azərbaycanlılar 30 il öncə Qarabağdan çıxmaq məcburiyyətində qaldıqda heç bir evi yandırmadılar, çünki insan öz evini yandırmaz, ancaq ermənilər oralardan gedəndə hər şeyi yandırdılar, çünki oralar onların vətəni deyildi".

### "Bütün dünya bilsin ki, Azərbaycanın yanında olacağıq, Azərbaycanın sevinci sevincimiz, azadlığı azadlığımız, kədəri kədərimizdir"

Türkiyə Prezidenti Qarabağın işğaldan azad edilməsi Azərbaycanın müstəqilliyinin 30 ilinin ən önəmili hadisə olduğunu deyərək bildirib ki, 30 il sonra bu torpaqlar öz sahiblərinə qovuşdu: "Bu zəfəri və barışı Azərbaycan xalqına qazandıran, Prezident, qardaşım İlham Əliyevə bir daha təşəkkür edirəm. Azərbaycan xalqını bu qələbə münasibətilə təbrik edirəm. Türkiyə həm dövlət, həm də millət olaraq qardaş Azərbaycanın yanında yer alıb. Bu gün də Azərbaycanın yanıdayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdisə, biz də bu gün və gələcədə bərabər olacağıq. Azərbaycanın sevinci sevincimiz, azadlığı azadlığımız, kədəri kədərimizdir".

İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış vəziyyət barədə danışan Türkiyə Prezidenti deyib: "Qafqazda sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Biz də azərbaycanlı qardaşlarımızla bölgənin təhlükəsizliyi ... " 

Bəli, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Hər zaman da bu belə olacaq. Çünki Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".

***RƏFİQƏ KAMALQIZI***

# Təhsil Tələbə Krediti Fondu nə vəd edir?

"Hələ 2013-cü ildə "Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda Təhsilin İnkişaf Fondunun yaradılması nəzərdə tutulsa da, yaradılmadı. Son 7 il ərzində 5 mindən artıq tələbə təhsil haqqını ödəyə bilmədiyinə görə universitetlərdən xaric edilib. Qanunla isə insanların təhsil alması üçün şərait yaradılmalıdır. Azərbaycanda hər il məzunların cəmi 42 faizi ixtisas üzrə iş tapa bilir. Qalanlar ya digər ixtisaslar üzrə işləyir, ya da, ümumiyyətlə, işləmir.Qeyd edim ki, tələbə kreditləri üçün 80 milyon manat ayrılıb və ayrılan 80 milyon manat 38-42 min tələbənin təhsil haqqını ödəməyə imkan verəcək. Hesab edirəm ki, Kreditlər faizsiz verilməlidir, çünki sonra tələbələr problemli kredit alana çevrilməli deyil. Həm də kredit verilən uşaqlar sonra işlə təmin edilməlidir ki, təhsili başa vurandan sonra onu ödəyə bilsinlər". Bu sözləri SIA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, hazırda Azərbaycanın 54 ali təhsil müəssisəsində 182 minə yaxın tələbə təhsil alır: "Onların 60 faizi öz vəsaiti hesabına, yəni, ödənişli əsaslarla, 40 faizi isə dövlət büdcəsi vəsaiti hesabına təhsil alır. Bu, o deməkdir ki, hazırda Azərbaycan ali təhsil müəssisələrində 110 minə yaxın şəxs ödənişli əsaslarla təhsil alır".

Ekspert sözlərinə belə davam edib: "Avropa ölkələri və ABŞ, post-sovet məkanından isə Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və Özbəkistan təhsil kreditləşməsini tətbiq edirlər. Məsələn, ABŞ-da bununla Federal Agentlik məşğul olur. Agentliyin çox böyük dövriyyəsi var. Kreditlər 3 növdür: federal tələbə krediti, valideyn krediti və özəl kredit. Hər biri müxtəlif qruplara və şərtlərlə verilir, faizlər çox aşağıdır. Dövlət yaxşı oxuyan tələbələr üçün bir sıra başqa güzəştlər də tətbiq edir. Bəzi ştatlarda təhsildə, elmdə yüksək nəticə əldə edən tələbələrə o kreditlər bağışlanır. Analoji qurumlar Almaniyada, Fransada, Böyük Britaniyada, Şərqi Avropa ölkələrində də var. Kreditlərin mənbəyi kimi adətən dövlət resursları çıxış edir, amma dövlətin stimullaşdırdığı özəl fondlar, banklar da bu prosesdə iştirak edə bilir. Həmçinin universitetlərin özləri də kredit ayırırlar. Əksər ölkələrdə faizlər çox aşağı, müddət uzun olduğu üçün qaytarılmasında çətinlik yaratmır. Adətən kreditin qaytarılmasına universiteti bitirdikdən 2 il sonra başlanılır, 5-7-10 ilə, bəzənsə 30 ilədək müddətdə qaytarılır. Bütün dünyada təhsilin inkişaf etdirilməsində bu kreditlər böyük rol oynayır. Müsəlman ölkələrindən İndoneziya və Türkiyədə məhdud da olsa təhsil kreditləşməsi tətbiq olunmağa başlayıb. Avstraliyada təhsil kreditləri faizsiz verilir. Bəzi ölkələrdə isə faizlər yalnız texniki xərcləri örtəcək həcmdə olur - 1-2 faiz. Ümumiyyətlə tələbə kreditləri konstitusiyanın tələblərinə zidd-dir. Belə ki, konstitusiyaya görə maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir".




"Hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Bunu dövlət təmin edir. Statistikaya baxsaq, görərik ki, son 5 il ərzində 7 mindən çox tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün ali təhsil almaqdan məhrum olub. Yəni, 1-2-ci kursda oxuyub, növbəti illərin təhsil haqqını ödəyə bilmədiyi üçün universitetdən imtina etməli olub. Qardaş Türkiyədə də bu kredit sistemi mövcuddur və tələbələrə mox ciddi güzəştlər edilir. Bu gün ali təhsil müəssisələrini bitirənlərin 42 faizi işlə təmin olunur. Bunun üzərində işləmək lazımdır. Çünki kredit götürüb təhsil haqqı ödəyən şəxslər potensial problem kreditora çevrilir. Yeni Azərbaycanda hal-hazırda tələbələrə güzəştli kreditlərin verilməsi mövcud deyil. Olan da maarifçi kreditindir. O da özəldir və büdcəsi yoxdur".

***Ayşən Vəli***

# DTX Suriyada döyüşmüş azərbaycanlını Ukraynada tutdu



Xarici ölkənin ərazisində qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak edən şəxs məsuliyyətə cəlb olunub. SIA-nın Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən məlumatına görə, DTX tərəfindən xarici ölkələrin ərazisində qanunsuz silahlı birləşmələrin fəaliyyətində iştirak edən Azərbaycan Respublikası vətəndaşlarının müəyyən olunaraq cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində tədbirlər davam etdirilir.

DTX-nin Ukrayna xüsusi xidmət orqanları ilə birgə keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində, Suriya Ərəb Respublikasının ərazisində həmin dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etdiyinə görə barəsində DTX-də aparılan cinayət işi üzrə axtarış elan edilmiş Azərbaycan Respublikasının vətəndaşı 1979-cu il təvəllüdlü Mirismayıllı Mirəhəd Tofiq oğlu Ukrayna ərazisində müəyyən edilərək saxlanılmış və ölkəmizə gətirilmişdir.

Mirəhəd Mirismayıllı Suriyada Hacıyev Aqil Tağı oğlunun başçılıq etdiyi "Cundu Şam" adlı cinayətkar birliyin fəaliyyətində iştirak etmək üçün 20 iyun 2013-cü il tarixdə adıçəkilən ölkəyə gedərək orada aparılan silahlı münaqişələrdə digər Azərbaycan Respublikası vətəndaşları ilə birgə iştirak etməkdə şübhəli bilinir.

Həmçinin müəyyən edilmişdir ki, Azərbaycan Respublikası vətəndaşlarının bir qismi həmin bölgələrdə davam edən silahlı münaqişələr zamanı öldürülmüşdür.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində istintaqı aparılan cinayət işi üzrə Mirəhəd Mirismayıllıya Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddəsi ilə ittiham elan olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. O, istintaqa verdiyi ifadə zamanı törətdiyi cinayət əməlini etiraf edərək səmimi peşmanlıq hissi keçirdiyini bildirmişdir. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Erməni radikalının NATO iddiası: Rusiya politoloqu ifşa etdi

## Vadim Truxaçov: "Bu, anqlosakson oyunlarıdır"

***Ermənistanın parlament seçkilərinə qatılan ən radikal siyasi gücü - Milli demokratik qütbü (MDQ) bəyan edərək seçicilərinə vəd verib ki, siyasi təşkilat ABŞ-dan zəmanət alıb və ölkəsi NATO-nun xaricində əsas müttəfiqlərindən biri olacaq. Həmçinin, MDQ-nin baş nazirlik postuna namizədi Vaqe Qasparyan bildirib ki, erməni politoloqu Ara Papyan ABŞ-a səfəri zamanı (bu şəxs həm Ermənistanın, həm də Kanadanın ikili vətəndaşıdır və MDQ-ni dəstəkləyir) sözügedən məsələni yüksək rütbəli amerikalı məmurları və strukturları ilə müzakirə edib.***



Bundan əlavə, "NATO-nun xaricində əsas müttəfiqi" (Major Non-NATO Ally, yaxud MNNA) yerini almaq çox çətindir. Buna misal olaraq Moldovanı göstərə bilərik. Bu ölkə həmin yeri tutmaq üçün 1992-ci ildən cəhdlər göstərir. Məhz bunu nəzərə alsaq, Ermənistanın həmin yerə ümumiyyətlə namizəd olmadığını deyə bilərik.

### Rusiyalı politoloq: "İsrail, Cənubi Koreya, Yaponiya kimi ölkələr adıçəkilən quruma daxil olublarsa, Ermənistanın da orada yer alması mümkün görünmür"

SIA xəbər verir ki, mövzu ilə bağlı Rusiyanın dövlət humanitar universitetinin dosenti, politoloq Vadim Truxaçov caliber analitik informasiya mərkəzinə verdiyi müsahibəsində danışıb. Onun da sözlərinə görə, Birləşmiş Ştatların bu qeyri-rəsmi hərbi qurumuna daxil olmaq və müttəfiqlik adını əldə etmək asan deyil. O cümlədən, İsrail, Cənubi Koreya, Yaponiya kimi ölkələr adıçəkilən quruma daxil olublarsa, Ermənistanın da orada yer alması mümkün görünmür. Bunu iddia edənlər isə, sadəcə, öz arzularını reallıq kimi ictimai rəyə sırımağa çalışırlar.

### Daha bir iddia: "Erməni siyasətçisinin bənzər bəyanatları seçkiqabağı oyunbazlıqlardır və nəyə görəsə Rusiyaya qarşı qəzəbli olan seçicilərinə müsbət təsir etmək cəhdidir"

Vadim Truxaçov MDQ-nin Ermənistanın baş nazirlik postuna namizədi Vaqe Qasparyanın Qarabağdakı Rusiya hərbçilərini sülhməramlı hesab etməməsini onların beynəlxalq mandata sahib olmamaları ilə əlaqələndirməsi iddiasına da cavab verərək deyib ki, bu kimi fikirlər səsləndirilsə də, istər Ermənistan, istərsə də Azərbaycan onları sülhməramlı olaraq qəbul edir. Bu baxımdan, erməni siyasətçisinin bənzər bəyanatları seçkiqabağı oyunbazlıqlardır və nəyə görəsə Rusiyaya qarşı qəzəbli olan seçicilərinə müsbət təsir etmək cəhdidir.

### Sübut: "Vaşinqton arzu edir ki, həm Ermənistan, həm də Azərbaycan Rusiya ilə yola getməsin"

Rusiyalı politoloq Vaqe Qasparyanın ABŞ tərəfindən Skandinaviya ölkələrinin sülhməramlılarının Qarabağa yerləşdirilməsi təklifi verməsi ilə bağlı fikirlərinə də münasibətini açıqlayıb. Məlum olub ki, ABŞ belə bir təkliflə çıxış etmişdi, ancaq bir neçə Skandinaviya ölkələrinə bununla bağlı suallar verilləndə onlar bu məsələni ilk dəfədir ki, eşitdiklərini deyiblər.

"Bilirsiniz, mən bunun doğru olduğunu istisna etmirəm və ABŞ belə də davam edəcək. Lakin ABŞ-ın bu məsələdə bir əsas məqamı var - Rusiyanı Cənubi Qafqazdan sıxışdıraraq çıxarmaq, ya da əsaslı dərəcədə zəifləmək. Amma bunu kimin üzərindən etməsi elə də əhəmiyyətli deyil. Vaşinqton arzu edir ki, həm Ermənistan, həm də Azərbaycan Rusiya ilə yola getməsin. Bu, anqlosakson oyunlarıdır", rusiyalı politoloq qeyd edib.

***Rövşən RƏSULOV***

# Rusiya ABŞ-ın nüvə sualtı gəmisinin ovuna çıxdı - Putin əmr verdi!



***Qara dənizdə Ukrayna ilə Rusiya arasında başlayan gərginliyə ABŞ da qoşuldu. ABŞ və Rusiya arasındakı gərginlik dünyanın diqqətini çəkdiyi bir vaxtda Putindən çoxdan gözlənilən bir həmlə gəldi. SIA-nın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, Rusiyanın dövlət başçısı ABŞ-ın Qara dənizdə mövcudluğuna cavab olaraq Sakit okeandakı Hərbi Donanmasının gəmi və təyyarələrinə Havay adaları sahillərindəki Amerikanın nüvə sualtı gəmisini "ovlamaq" əmrini verdi.***

Qeyd edək ki, bir neçə saat əvvəl Amerikanın "USS North Carolina" nüvə sualtı qayığı Havay adalarındakı hərbi bazasını tərk edib okean sularına daxil olub. Bu hərəkət Rusiya Hərbi Dəniz Qüvvələri gəmilərinin və uzun mənzilli sualtı qayıq əleyhinə təyyarələrin Havay adaları yaxınlığında aşkar edilməsindən sonra baş verib.

Bundan əvvəl Avia.pro xəbər portalı bir qrup Rusiya hərbi gəmisinin Havay adalarına yola düşdüyünü və onlara uzaqmənzilli sualtı gəmi əleyhinə tətbiq olunan təyyarələrin də qoşulduğunu bildirmişdi. Rusiya hərbi gəmiləri və döyüş təyyarələri bundan əvvəl Amerika dəniz qüvvələrinə qarşı, eləcə də ABŞ-ın ən böyük dəniz bazalarından birinə hücum edib məhv etmək üçün təlimlər keçirdilər.

ABŞ-ın USS North Carolina nüvə sualtı qayığının hansı istiqamətə getdiyi məlum deyil, ancaq Rusiya ordusunun Amerika sualtı qayıqlarını xüsusi izləmə üsulları var. Rusiya KİV-ləri xəbər verir ki, Vladimir Putin ilə Co Bayden arasında 16 iyunda baş tutan görüşün fonunda NATO ilə ABŞ-ın Qara dənizdə bir təxribat hazırladığı məlum idi. Bu addım Pentaqon və İttifaqa üzv dövlətlərin Ağ Evlə Moskva arasındakı münasibətlərin yaxşılaşmasına mane olmaq səylərindən irəli gəlir.

# "Mədəniyyətsiz insanlara hər yerdə rast gəlinir" - Akademiya rəhbəri yol göstərdi



***"Xoşagəlməz və mədəniyyətsiz insanlara hər yerdə rast gəlinir. Bu kimi insanlar sizin rəhbəriniz, müdiriniz, əməkdaşınız və yaxud tabeçiliyinizdə olan işçilər ola bilər". Bu sözləri SIA-ya açıqlamasında Etika Akademiyasının rəhbəri Günel İbrahim deyib.***

Onun sözlərinə görə, bu cür insanlara toksid insanlar deyilir: "Alimlər də sübut edib ki, mədəniyyətsiz, davranış qaydalarından xəbərsiz insanlarla münasibətlər yorucu ola bilər və sağlamlığa ziyan vura bilər. Mədəniyyətsiz insan - müəyyən xüsusiyyətlərə malik, eqoist, qarşısındakı insanın fikirlərini almaq üçün sual verməyən insandır. Sualları çox şəxsiyyə daşıya bilir və hər kəsin içində çox özəl suallar verə bilir. Bu insanlar protokol və ədəb qaydalarını "iqnor" edərək onu səmimiyyətlə səhv salırlar".

Günel İbrahim həmçinin qeyd edib ki, bu cür insanlardan özümüzü qorumaq üçün ilk "yox" cavabını verməliyik: "Təbii ki, mədəniyyətli insan heç vaxt kobud şəkildə cavab verməyəcək. Onun hər hansı bir sualına sizin vaxtınızın olmadığını və sizin hal-hazırda çox vacib işinizin olduğunu deyərək ona yox deyə bilərsiniz. İkinci qayda isə siz mütləq mədəni cəhətdən üstün olmalısınız. Heç vaxt mədəniyyətinizi pozmamalısınız. Üçüncü qayda sakitçilikdir. Əlbəttə sakitçiliyinizi qoruyub saxlamalısınız. Əsəblərinizi heç vaxt korlamayın. Səsinizi cavab verərkən nə alçaltmalı, nə də yüksəltməlisiniz. Baxışınız çox düz olmalıdır. Əsla üzünüzdə nədənsə pis olduğunuz və yaxud da əsəbi olduğunuzu bildirməməlisiniz. Bu sizin əminliyinizi və qarşınızdakı mədəniyyətsiz insanın maraq dairəsində və təsir altında olmadığınızı göstərəcəkdir".

***Arzu Qurbanzadə***

# Putinin "Veni, Vidi, Vici"-si...

## Yaxud, Baydenə heç anası da kömək edə bilmədi






### Atalar misalı: At olmayan yerdə, eşşək də (demokratlar) atdır

Dünya ictimaiyyəti Rusiya və ABŞ prezidentləri - Putin-Bayden görüşünü və onun nəticələrini səbrsizliklə gözləyirdi. Yəni hər kəs maraqlıydı ki, görəsən bu görüşdə söz sahibi kim olacaq və cəmi bir raundluq görüş nəticəsi hansı dövlətin başçısının xeyrinə tərəf inkişaf edəcək? Görüş baş tutdu və...

Və Putin Baydeni bir "zərbədən" siyasi tarixin rəflərinə doğru göndərdi. ABŞ ictimaiyyəti bu görüşün nəticələrindən məyusluq hisslərini gizlədə bilmir və hətta ənənəvi olaraq demokratları dəstəkləyənlər belə Baydeni, sözün əsl mənasında, "yıxıb-sürüyürlər". Elə New York Times (NYT) qəzetinin başlığı bu hiddətin dərəcəsini göstərir. SITAT: "Bağışla Bayden, amma açığı Putinin heç vecinə də deyil (Sorry, Biden. Putin Honestly Could Not Care Less).

Link aşağıda:
httrs://www.nytimes.com/2021/06/16/orinion/rutin-biden-summit.html

Sözügedən məqalədə ABŞ dünyada itən nüfuzu fonunda Putinin faktiki olaraq ABŞ -ın hər bir həmləsini məhv etdiyi ətraflı qaydada, özü də heç bir dezinformasiyaya uymadan təhlil edilir. Ən maraqlısı da budur ki, bu tək belə fikir deyil... Bəli, Putin Baydenlə görüşdən sonra çox əsəbi idi və onun əsəbini başa düşmək olardı. O, Cenevrəyə ciddi görüşə gəlirdi, neçə vaxtdır hazırlaşırdı, özünün görüş strategiyası və şübhəsiz ki, görüş gündəliyi var idi, lakin sırf özünü "güvən olunası" lider qismində göstərmək məqsədi ilə görüşməyi xahiş edən Bayden bu qədər zəhmət hesabına əmələ gələn randevunun nəticələrini heçə endirdi!

Bayden görüşü praqmatik və işgüzar siyasi randevu əvəzinə, deklarativ bəyanatlar səhnəsinə çevirdi. Rəhmətlik Fərrux demiş: "Şou davam etməlidir..!".

### Baydenlə Blinkenin əllərində "şparqalkalar" var idi, Putinlə Lavrov isə, sadəcə, əlləri ciblərində görüşə gəlmişdilər

Əlbəttə, bu, gözlənilən idi, Bayden siyasətçi kimi artıq çoxdan "ölübdür". O, əslində heç vaxt prezident olmaq belə istəmirdi. Lakin demokratların arxasında duran qüvvələrə məhz belə siyasi "ipli oyuncaq" lazım idi ki, onun yanına Blinken və Salevan kimilərini yerləşdirməklə, həmin "ipli oyuncağı" rahatlıqla idarə etsinlər.

Görüşün əvvəlində Baydenlə Blinkenin əllərində "şparqalkalar" var idi, Putinlə Lavrov isə sadəcə əlləri ciblərində görüşə gəlmişdilər. Ümumiyyətlə, qəbul olunan protokol qaydalarına əsasən Blinkenin görüşdə iştirakı təkbətək görüş formatına zidd idi. Sadəcə, Baydenin özünü idarə edə bilmədiyi üçün onun "kuklaçıları" mütləq Blikeni o görüşə salmalı idilər ki, həm nəzarət, həm də lazım olanda müdaxilə etsin. Aydındır ki, belə halda Lavrovun da görüşdə iştirakı labüd oldu. Və bu fakt artıq görüşün yalnız rəsmi formatda keçiriləcəyini göstərirdi.

Adətən, ölkə başçıları təkbətək görüşəndə daha səmimi və cəsarətli olurlar. Belə ki, tərcüməçidən başqa heç kim olmur, bu da imkan verir ki, birinci şəxslər müəyyən dərəcədə çeviklik göstərib bir çox "iti" məqamları yumşaltsınlar. Lakin Blinkenin görüşdə olması nə Baydenə nə də Putinə həmin imkanı vermədi. Bir sözlə, görüş sırf rəsmi format, rəsmi dil, rəsmi mövqe və bəyanatlarla aparıldı. Şübhəsiz ki, görüşün belə qədişatı Putini əsəbləşdirmişdi və o əsəbini görüşdən sonrakı mətbuat konfransında bir neçə bəyanatı ilə faktiki olaraq Baydenin onsuz da sürətlə aşağı düşən nüfuzunu heçə endirdi. Bəyanatlar isə son dərəcə diplomatik baxımdan örtülü bəyanatlar idi, lakin mənanı dərhal tutmaq olurdu. Məsələn, Baydenin Putinin "qatil" adlandırması ilə bağlı suala, Putinin cavabı əsl sensasiya yaratdı. Putin ilk dəfə açıqladı ki, Bayden bu məsələ ilə bağlı Putinə zəng edib və " ...onun (Bayde-nin-red.) izahatları məni qane etdi...", deyə bildirib.

### Baydenin ana mövzusu Putini niyə qəzəbləndirdi?

Digər bəyanatında isə Putin bəyan etdi ki, Bayden bir xeyli öz anası haqqında danışdı və bununla da istiqanlı olduğunu göstərdi. Əlbəttə ki, bu, son dərəcədə sarkastik bir ifadədir. Putin bununla demək isteyirdi ki, biz buraya dünya problemlərini müzakirə etməyə gəlmişik, Bayden isə öz anası haqqında (?) danışır. Yəni şəxsi söhbətlər üçün başqa imkanlardan istifadə etmək lazımdır, bütün dünyanın gözünü tikdiyi görüşdə isə siyasi məsələlərə fikir vermək vacibdir.

Yeri gəlmişkən, ilk dəfə deyil ki, Bayden öz anasını xatırladır. Britaniya kraliçası ilə görüşdən sonra da Bayden kraliçanı anasına bənzətmişdi. Bu isə təbii haldır. Belə ki, insan yaşlandıqca, xüsusən dünyasını dəyişən valideynlərinin daha tez-tez xatırlamağa başlayır. Əsasən də nəzərə alsaq ki, Baydenin anası Cin (əsl adı Katerin) 2002-ci ildə yoldaşı rəhmətə gedəndən sonra oğlu Cozef Baydenlə qalırdı, onda Baydenin anasına olan sevgi və duyğularını başa düşmək olar. Lakin Putin kimi praqmatik bir insan üçün belə hisslər yaddır. Putin özünün siyasi çevikliyini artırmaqdan ötrü hətta uşaqlarının anasını boşayan bir insandır. "Mən öz həyatımı Rusiyanın taleyi ilə bağlamışam", deyə Rusiya prezidenti bildirib. Odur ki, belə həssas hisslərlə Putinin güzəştini əldə etmək mümkün deyil.

### Baydenin Putinə uzun-uzadı Navalnı barədə danışması qlobal problemləri arxa plana atmış oldu

Növbəti bəyanat isə başıbəlalı Navalnı ilə bağlıdır. Putini dinləyənlər fikir verdilər ki, o, bir dəfə də olsun Navalnının adını çəkmədi. Gah "vətəndaş", gah "bu kəs" ifadələrindən istifadə edirdi. Yəni açıq-aşkar göstərirdi ki, Navalnı Putin üçün adi sıravi vətəndaşdır və onu digərlərindən fərqləndirən deyil. Ancaq onu da etiraf edək ki, məhz Navalnı mövzusu danışıqlar zamanı Putini ən çox əsəbləşdirən mövzu olmuşdu. Həqiqətən də belə məlum olurdu ki, iki saat çəkən görüş zamanı Bayden yarım saat anası haqqında danışıb, yarım saat da Navalnı haqqında. Əlbəttə, bir dövlətin digər dövlətə öz vətəndaşı ilə necə davranmağı məsləhət verməsi yolverilməzdir. Xüsusən də öz dövlətində irqçiliyin baş aldığı bir məqamda. Yəni Çin, Suriya, İran və digər qlobal məsələlər qalıb kənarda, Bayden Navalninin həbsdəki vəziyyəti ilə maraqlanır.

Amma Baydenin bu məsələ haqqında danışması da başadüşüləndir. "Navalnı məsələsi" yeganə məsələdir ki, bu mövzuda səhv etmək mümkün deyil. Yəni istənilən digər qlobal mövzuda Bayden danışa biləcək durumda deyildi deyə gücü verib bu məsələyə. Şübhəsiz ki, bu da Putini özündən çıxartmışdı.

Başqa bir məsələ isə Ukrayna məsələsidir ki, burada da tam yenilik o oldu ki, Putin artıq bütün müzakirələri Donbas üzərinə yönəlti. Yəni Krım artıq müzakirə mövzusu deyil və Baydenin mətbuat konfransında "Biz Ukraynanın ərazi bütövlüyün tanıyırıq" deməsi, artıq Ukraynanın Krımsız ərazi bütövlüyünün tanınması kimi də qiymətləndirilə bilər. Bir sözlə, Baydenin ipini çəkənlər guya Putin üçün qazdıqları "tələyə" elə özləri düşdülər. Özü də "tələləri" Hollivudun bütün qaydalarına uyğun qurmuşdular. Misal üçün,




Putindən xahiş etmişdilər ki, birinci görüşə Putin gəlsin və sonra Bayden. Yəni Birdən Putin gecikse, Bayden onu gözləməklə gözdən düşməsin. Baydenin mətbuat konfransına yalnız ABŞ-ı təmsil edən, özü də demokratların nəzarətində olan mətbuat nümayəndələrini dəvət etmişdilər. Baydenin mətbuat konfransı Putinin mətbuat konfransından sonra təşkil olunmuşdu ki, birdən Putin nə isə qeyri-qənaətbəxş söz desə, Bayden öz çıxışında ona cavab verə bilsin.

### Təkqütblü dünya düzəninin sükanı Rusiyaya keçir?

Əlbəttə, Putin bunların hamısını gözəl bilirdi və bu səbəbdən də amerikalıları elə onların özlərinin qurduqları qaydalar çərçivəsində məhv elədi. Putin göstərdi ki, onun üzərində “standart” şou elementləri ilə qalib gəlmək olmaz. Əslində, bunu Bayden də yaxşı bilir. Görüşdən qabaq G7 görüşündə ABŞ müxbirlərindən biri Baydenə “Necə olur ki, Putin okeanın o tərəfindən olan təzyiqlərə tabe olmur?” sualını verdi. Baydenin bu suala cavabı lakonik, lakin son dərəcə məzmunlu oldu: “Ona görə ki, o Vladimir Putindir”.

Ümumiləşdirərək, görüşdən gözlənilən kimi Putin qalib çıxdı və sonrakı mətbuat konfransında sübut etdi ki, artıq ABŞ supergüc deyil. Bu randevu ABŞ-ın supergüc rolunda son görüşü oldu. Və bundan sonra artıq Putin tam müstəqil və ümumiyyətlə heç nədən çəkinmədən hərəkət edəcək. Putinin də bu görüşə razılaşmasının əsas məqsədi elə bu idi. Belə ki, Bayden seçkiqabağı çıxışlarının birində demişdi ki, “Tramp Putinin küçüyüdür”. Putin isə bu görüşlə göstərdi ki, əksinə, ABŞ-ın indiki rəhbərliyi onun “oturqalx” komandasına əməl etməlidir.

Şübhəsiz ki, dünya siyasətində yeni era başlayır. Əgər əvvəllər təkqütblü dünya düzəni deyəndə ABŞ nəzərdə tutulurdusa, artıq bu gündən sonra həmin ifadə səsləndiriləndə hər halda Rusiya nəzərdə tutulacaq. ABŞ-ın siyasi texnoloqları bu görüşdən sonra Rusiyaya qarşı başqa hansı stopedici addımlar fikirləşəcəyi isə həqiqətən maraqlıdır.

### New York Times: “ABŞ-a artıq əvvəlki etimad və inam yoxdur, ABŞ təbliğat maşını artıq dünyanın digər təbliğat maşınlarını rəqabətini və müqavimətini hiss edir və onlara uduzur”

Düzdür, USAİD və digər qurumlar vasitəsi ilə, yenə də Rusiyanı nüfuzdan salan müxtəlif təbliğat proqramları-layihələri həyata keçirəcəklər. Özü də nəzərə alsaq ki, USAİD-in indiki rəhbəri Baydeni “Allah” sayan ermənofil Samanta Pouerdir, o halda Bayden bu rıçaqdan maksimum istifadə edəcək. Amma çətin ki, bu, artıq əvvəlki effekti versin.

Elə yuxarıda istinad etdiyimiz NYT-ki məqalədə müəllif ABŞ-dünyada ikili standartlar yürütməklə nüfuzunu itirdiyini göstərir. ABŞ-a artıq əvvəlki etimad və inam yoxdur, ABŞ təbliğat maşını artıq dünyanın digər təbliğat maşınlarını rəqabətini və müqavimətini hiss edir və onlara uduzur. O səbəbdən, Baydenin mətbuat konfransına yalnız demokratlara loyal jurnalistlər buraxılmışdı.

Burda bir haşiyəyə çıxmaq istərdik. Əlbəttə ki, yaxşı olardı ki, bu görüşdə Azərbaycanı da təmsil edən heç olmasa bir əsl vətənpərvər jurnalist olsun. Birincisi bu, imkan verərdi ki, sual verməklə, görüş iştirakçılarının regiondakı vəziyyətə mövqeyini öyrənək, digər tərəfdən göstərərdi ki, Azərbaycan cəmiyyəti dünya siyasətinin nəbzini tutmaq istəyir və beynəlxalq platformalarda daha fəal iştirak etmək niyyətindədir. Belə tədbirlərdə jurnalistlərin iştirakı ölkə nüfuzu öcün son dərəcə əhəmiyyətlidir. Ümid edək ki, gələcəkdə bu kimi məsələlər nəzərə alınacaq və ölkəmizin media qurumları da belə tədbirləri işıqlandıracaqlar.

Şübhəsiz ki, ABŞ əlində son təsir rıçağı olan dollar amili var. Dolların güclənməyinə isə İkinci Dünya müharibəsindən sonra zəif Avropanın uzun illər özünə gəlməməsi olub. Belə ki, okeanın o tərəfində rahatca oturub, bu tərəfdəki müharibələrə müdaxilə edən ABŞ, həmişə sudan quru çıxıb, hələ silah sursat satmaqla pul da qazanıb. Məhz bu uzaqlıq ABŞ-a imkan verib ki, öz ərazisində müharibələr görmədən inkişaf etsin.

Amma 2001-cil 11 sentyabr hadisələri zamanı 5-6 nəfər terrorçu o yekəliyində ABŞ-ı diz çökdürüb hətta Pentaqonu belə partlatdı. Təhlükəsizliyinə əmin olmayan ABŞ prezidenti saatlarla təyyarədə qaldı ki, aidiyyəti qurumlar vəziyyəti öyrənsinlər. İndi görün, ABŞ ərazisində müharibə olsa nə baş verərdi. Nə isə, bu, başqa bir yazının mövzusudur...

### ABŞ əvvəl-axır özünün “Amerika istisnaçılığı” ideologiyasının nə qədər səhv olduğunu yəqin ki, başa düşüb

Qayıdaq dollara. Dollar amili də get-gedə zəifləyəcək ( Yəqin bir çoxları bilmir ki, dolların arxasının yaşıl rəngdə olmağında İslam dininin böyük rolu olmuşdu, bu haqda növbəti dəfə...)

Avropada artıq avro yaranıb. Rusiya və Çin də dollardan imtina etmək niyyətindədir. Bu kimi böyük iqtisadiyyatlar dollardan imtina etdikdən sonra, ABŞ bu son təsir amilini də itirəcəkdir. Siyasi baxımdan Rusiyanın zərbələrinə davam gətirməyən, texnoloji baxımdan isə Çinin təzyiqinə davam gətirməyən ABŞ əvvəl-axır özünün “Amerika istisnaçılığı” ideologiyasının nə qədər səhv olduğunu yəqin ki başa düşüb, daha dürüst və bərabər hüquqlu dövlətlər prinsipinə əsaslanan yeni və başqa dövlətlərə, xalqlara təhdid yaratmayan ideologiya yaradacaq.

11 il bundan öncə dünyasını dəyişən Baydenin anasının ona verdiyi əsas nəsihət belə olmuşdu: “Tanrı dərdi çəkənə verir” (“.. God sends no cross you cant bear..”). Lakin göründüyü kimi, Baydenin anası inanmırdı ki, Bayden nə vaxtsa prezident olacaq. Yəqin ki, o xanım heç Putini də yaxşı tanımırdı...

### Növbəti atalar sözü: “Qurumuş ağacın kölgəsi olmaz”

Bəs beynəlxalq səviyyədə növbəti qələbəsini qeyd edən Rusiya prezidentinin dövlət siyasəti olaraq bizim regiona necə təsirləri olacaq? Birinci növbədə onu qeyd etmək lazımdır ki, Azərbaycan Rusiyaya sadə dillə desək, bel bağlamaqda düzgün siyasət seçib. ABŞ ona güvənənləri həmişə ya sonda satıb, ya da ümumiyyətlə hesaba almayıb və hətta indinin özündə də satmaqda davam edir. Ancaq bu satqınlığı isə dollarla kompensasiya edir. ABŞ yardım proqramlarına baxsaq ən çox yardım alan ölkələr məhz ABŞ-ın əvvəlcə dəstək verəcəyinə söz verdiyi, sonradan isə Rusiya ilə təkbətək qoyduğu dövlətlərdir. Məsələn, Ukrayna, Gürcüstan və sair.

Bu görüşdən sonra aydındır ki, Rusiya hegemonluğunu davam edəcək. O cümlədən bu regionda da. Lakin bu mənada Rusiya-Türkiyə faktorunu da unutmaq olmaz. Belə ki, Cənubi Qafqaz regionunda artan Türkiyə amili birbaşa Putinin maraqlarına xidmət edir. Bu zaman hansı proqnozları önə sürmək olar? NATO Türkiyədən asılı vəziyyətə düşə bilər. Yaxud Türkiyə NATO-da ən nüfuzlu dövlətə çevriləcək. Şimal Alyansının başbilənləri yaxşı bilirlər ki, Türkiyə Rusiya ilə ciddi əməkdaşlıqdadır və bu qurumun Türkiyəyə qarşı hər hansı addım atacağı halda, Ankara kəskin planlarını işə sala və quruma daxildən zərbə vura bilər. NATO-dakılar bunu hiss edib və əbəs deyil ki, son vaxtlar Türkiyənin NATO üçün nə dərəcədə əhəmiyyətli olduğunu vurğulamağa, Ankara ilə ehtiyatlı davranmağa başlayıblar.

Amma artıq gecdir, mexanizm işə salınıb və Rusiya-Türkiyə çoxşaxəli əməkdaşlığı NATO-nu təlaşlandırıb. Baydenin zəif siyasətçi olması isə bu prosesə bir az da təkan vermiş olur. Belə ki, Baydenin qondarma erməni soyqırımını tanıması NATO çərçivəsində Qərb-Türkiyə birliyini sarsıtdı və bu əməkdaşlıq artıq heç vaxt əvvəlki kimi möhkəm olmayacaq. Yəni bənzər qurum daxilində siyasi və hərbi əməkdaşlıq edən dövlətlərdən biri digərini, həmin qurumun üzvü olmayan saxta bir dövlətə dəyişdi və faktiki olaraq “soyqırımı törədən” adlandırdı. Bundan sonra hansı strateji əməkdaşlıqdan danışmaq olar?!

### ABŞ ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olaraq 30 il erməni işğalına göz yumdu, “status kvo”nun qalmasına çalışdı

Azərbaycanın isə əlbəttə ki, öz müstəqil qətiyyətli siyasəti var. Buradan açıq şəkildə görünür ki, Bakı Türkiyə-Azərbaycan-Rusiya üçbucağı formatında əməkdaşlığı və inteqrasiyasını davam etdirməkdədir. Çünki ABŞ-ın regionda ciddi nüfuz itirməsi də buna dəlildir - təkcə erməni soyqırımının saxtakarlıqlarını tanıması faktı kifayət edir...

Başqa tərəfdən, ABŞ-ın regiona müdaxilə etməyə də heç bir ciddi rıçağı yoxdur. Yəni ABŞ Cənubi Qafqaz regionuna yalnız NATO çərçivəsində əməkdaşlıq etdiyi Türkiyə vasitəsi ilə müdaxilə edə bilərdi ki, Türkiyəni də verdi ermənilərin saxta iddialarının ayağına.

Başqa tərəfdən, ABŞ ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri olaraq 30 il erməni işğalına göz yumdu, “status kvo”nun qalmasına çalışdı. Biz hələ 907-ci düzəlişin illər boyu vurduğu zərbələri demirik. Hətta bütün bunlardan sonra ABŞ Konqresində 907-ci düzəlişin müvəqqəti dayandırılması qərarına yenidən baxılması ətrafında müzakirələr aparılır (?!). İndi isə regionun köklü dəyişikliklərində iştirakçıya çevrilməyə cəhdlər göstərən Bayden administrasiyası qısa zamanda buraxdığı boşluqlarının nəticələrini hiss etməkdədir.

Azərbaycanın seçimi mehriban və etibarlı qonşuluq siyasətidir. On min kilometrlər uzaqda bu regionun tarixini və mədəniyyətini tanımayan ölkələrin isə burada “tutacağı” heç bir şeyi artıq qalmayıb...

**Rövşən RƏSULOV**

***P.S.*** *Putinin “Veni, Vidi, Vici”-si (Gəldim, Gördüm, Qalib oldum) isə, həqiqətən də, ABŞ-ın siyasətini yerindən oynatdı. Sadə dillə desək, kim güclüdürsə, o da qalibdir.*

## Robert Koçaryan: “Diz çökərək yaşamaqdan bezmişik”



***Hakimiyyətə gediriksə, gələcəkdən danışırıq, amma gedən hökumət isə keçmişdən danışır. SIA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, Ermənistanın ikinci prezidenti, “Ermənistan” blokunun lideri, baş nazir postuna namizəd Robert Koçaryan bunu Sevan şəhərində keçirilən mitinqdə bəyan edib. İkinci prezident, təhlükəsizlik, iqtisadiyyat və daxili çəkişmələr olmaqla, ölkənin üç hissəyə bölünə biləcək ciddi problemlərlə üzləşdiyini vurğulayıb.***

“Seçim sadədir. Layiqli bir gələcək seçirik, yoxsa diz çökmüş bir həyat? İqtisadi bum və ya böhran, köç, işsizlik və yoxsulluq? Daxili həmrəylik, yoxsa nifrət və düşmənçilik? Tək bir hədəflə gedirik, nifrətdən imtina edirik, diz çökərək yaşamağı rədd edirik, bezmişik.

Məğlub olma kompleksini aşmalıyıq. Başqa vətənimiz yoxdur. Vətən yalnız yer deyil”, deyə Robert Koçaryan bildirib. Diqqətə çatdıraq ki, Sevandakı bir mitinqlə “Ermənistan” bloku bölgələrdəki görüşlərin nəticələrini çıxardığını bildirir. Bu gün, 18 iyun, İrəvanda bir mitinq də keçiriləcək.

***İnam Hacıyev***

# “Azərbaycan-Türkiyə əlavə ticarət sazişlərinin imzalanması istisna deyil”



“Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri əsas siyasi xarakter daşısa belə, bu səfərlər iqtisadi münasibətlərdə yeni cığırlar açır, mövcud cığırları genişləndirir. Türkiyə indiyədək Azərbaycana təxminən 12 milyard dollar investisiya yatırıb, ondan dəfələrlə kiçik (hər mənada) Azərbaycan isə bunun 160%-i qədər, yəni 19 milyard dollar investisiya qoyub”. Bunu SIA-ya açıqlamasında iqtisadçı ekspert Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, bu səfərdən sonra investisiya fərqlərinin tədricən aradan qalxacağı gözlənilir. “Necə? Azərbaycanın yatırdığı investisiya həcmlərinin çox olma səbəbi bu investisiyanın enerji, neft-kimya sənayesi kimi bahalı sahəyə yönəldilməsi olub. Türkiyə daha çox qeyri-neft, qeyri-enerji sahələri üzrə investisiya yatırıb. Hazırda Türkiyənin Azərbaycanda enerji sektoruna investisiya yatıracağı ilə bağlı gözləntilər böyükdür. Amma bu, ənənəvi enerji deyil, yaşıl enerji istiqamətini əhatə edəcək. Bunun üzərinə işğaldan azad edilmiş ərazilərimizə kütləvi cəlb edilmiş türk şirkətlərinin fəaliyyətini də gəlsək, demək, yaxın vaxtlarda investisiya balansında ciddi dəyişikliklər olacaq”, - iqtisadçı əlavə edib.

Onun sözlərinə görə, bir müddət əvvəl Türkiyə ilə Azərbaycan arasında bağlanmış Preferensial Ticarət Sazişindən sonra hər iki ölkə rəsmilərinin illik ticari dövriyyənin 3 dəfədən çox artırılaraq 15 milyarda çatdırılacağı ilə bağlı açıqlamaları ciddi iddiadır. 2019-cu ildə iki ölkə arasındanki ticarət dövriyyəsi özünün maksimum həddini- 4,5 milyard dolları keçmişdir. Ötən il isə təxminən 300 milyonluq bir azalma baş verib.

E.Əmirov hesab edir ki, bütün bunlara rəğmən, bu göstəricinin 15 milyardlıq hədəfə tuşlanmasının ciddi əsası var: “Belə ki, Azərbaycan bazarlarında türk mallarının daha çox olacağı gözlənilir. Dövriyyə artımının kökündə bu dayanır. Çünki Azərbaycanın qeyri-neft sahəsində ixrac potensilı onsuz da o qədər deyil ki, 15 milyard dollar həcmdə ciddi yer tutsun. Azərbaycanın neft-qaz ixracının artması, eləcə də Türkiyədən Naxçıvana qaz xəttinin işə salınması kimi məsələlər də təbii ki, öz töhfəsini verəcək. Amma dövriyyənin ana kanalı türk mallarının idxalı olacaq. Bu zaman Azərbaycan və Türkiyə arasında ciddi güzəştlərlə əlavə ticarət sazişlərinin imzalanması istisna deyil. Bu zaman zərər görəcək əsas sahə türk idxalı ilə eyni təyinatlı məhsulların yerli istehsalı olacaq. Onsuz da möhkəmlənmiş manat yüksək maya dəyərilə başa gələn Azərbaycan məhsullarını xarici məhsullara rəqabətdə uduzdurur. Bu azmış kimi ucuz lirə fonunda yerli məhsulların işi daha da çətin olacaq. İstər Türkiyə bazarlarında, istər Azərbaycan bazarlarında bizim məhsullar məğlubiyyətə məhkumdur. Buna görə də mütləq rəqabətə davamlı olması üçün yeni texnalogiyaya əsaslanan istehsal sahələrinin yaradılması üçün çox ciddi düşünmək lazımdır. Bunun ən effektiv yolu Türkiyə və “BB” reytinqinə sahib şirkətlərinin Azərbaycanda müəssisələr yaratmasıdır. Bu ölkələrin həm texnaloji yanaşma tərzi, həm təcrübəsi, həm də xarici bazar spektri çox genişdir. BB-Azərbaycan, Türkiyə-Azərbaycan, hətta BB-Türkiyə birgə müəssisələrinin də yaradılması isə bizim üçün ixrac potensialının artırılması və qabaqcıl təcrübənin qazanılması üçün ikiqat əhəmiyyətli olardı”.

# Normal, yoxsa elektron siqaret? - SORĞU

***Son dövrlərdə normal siqaretin yerini elektron siqaretler almağa başlayıb. Aparılan araşdırmalara görə elektron siqaret normal siqaretden 25 faiz insan orqanizimine ziyan verir. Bununla bağlı SIA paytaxt sakinlərinin fikrini alaraq sorğu edib.***



**Paytaxt sakini Sadiq Qaçayev:** “Əslində mən həm normal siqareti, həm də elektron siqaretin heç birini tövsiyyə etmirəm. 33 yaşım var və yaşadığım müddət ərzində həm siqaretdən, həm də spirtli içkilərdən uzaq olaraq istifadə etməmişəm. Belə deyə bilərəm ki, siqaretin heç bir xeyirli tərəfi yoxdur. Ziyanlı tərəfləri isə hər kəsə məlumdur, mən misal kimi özüm əgər siqaretin ziyanlı tərəfini bilməsəydim ondan istifadə edərdim. Çox təəsüf ki, ölkəmizdə siqaret çəkənlərin yaşı çox azdır. Hətta 16-17 yaşa qədər olan gənclər belə siqaretdən istifadə edir. İndi bunun səbəblərini araşdırmaq olar ki, nə səbəbdən gənclər erkən yaşdan siqaretdən istifadə edirlər. Burada hər hansısa psixoloji amilləri də nəzərə almaq olar. Ümumillikdə, tibbi nöqteyinəzərdən nə elektron siqaretin nə də ki, normal siqaretin çəkilməsini tövsiyyə etmirəm və buna bir mənalı şəkildə qarşıyam”.



**Paytaxt sakini Kənan Məmmədov:** “Mən elektron siqaretin normal siqaretdən fərqi kimi onu deyə bilərəm ki, normal siqaret çəkən adamın dişləri tez saralır və dəri rəngi qaralır. Amma elektron siqaretdə diş saralması yoxdur. Bir digər fərqi də ondan ibarətdir ki, səhər durub siqaret çəkən insanlarda halsızlıq yaranır. Amma elektron siqaret istifadə edən insanda bu problemlər yaşanmır. Elektron siqaretin normal siqaretden digər və mənim fikrimcə, ən vacib üstün cəhətindən biri də siqaret qoxusunun nə ağız boşluqundan, nə də insanın əynindən qoxunun gəlməməsidir”.



**Paytaxt sakini Ruslan Yusifov:** “Bildiyimiz normal siqaretlərin tərkibinə nikatindən əlavə başqa kimyəvi maddələr qatılır. Amma elektron siqaretlərin tərkibində olan kimyəvi maddələr çoxluq təşkil edir və normal siqaretdə olan nikatinlə bərabər səviyyədə olaraq insanların daha da çox elektron siqaretə tələbatını artırır. Mənim fikrimcə, elektron siqaretlərin verdiyi zərərlər adi siqaretin verdiyi zərərlərdən daha coxdur. Mən tövsiyyə edirəm ki, elektron siqaretin zərərləri çox olduğundan vətəndaşlar ondan istifadə etməsin”.





**Paytaxt sakini Sevil Paşayeva:** “Ümumiyyətlə deyə bilərəm ki, nə adi siqaret, nə də elektron siqaret çox ziyanlı bir şeydir. Mən tövsiyyə edirəm ki, hec kim tütün məhsullarından istifadə etməsin. Siqaret çox pis bir vərdişdir. İnsanın gələcəkdə nəfəs problemi yaşamasına gətirib çıxardır”.



**Paytaxt sakini Məhəmməd Dərziyev:** “Mən tütün məhsullarından istifadə edirəm. Elektron siqaretdən də istifadə etdim və normal siqaretdən daha çox zərər verir. Mən onu deyə bilərəm ki, gənclər ümumilikdə siqaretdən uzaq dursunlar amma istifadə edənlər də elektron siqaretlərdən istifadə etməsinlər”.

**Paytaxt sakini Könül Qasımova:** “Mən bir gənc xanım olaraq onu deyə bilərəm ki, gənclər daha çox elektron siqaretlərdən istifadə edirlər. Elektron siqaretlərin normal siqaretlərdən fərqi ondan ibarətdir ki, heç bir qoxu hiss edilmir. Tövsiyyə edirəm ki, ümumilikdə vətəndaşlarımız tütün məhsullarından az istifadə etsinlər. Bununla bağlı dövlətimizdə sosial reklam çarxları çəkilir və mətbuatda da tez-tez işıqlandırılır”.



**Paytaxt sakini Ziyafət Yaqubzadə:** “Mən ümumilikdə deyə bilərəm ki, siqaretin həm normalı, həm də elektronu ziyanlıdır. Bununla bağlı təbliğ edici layihələr olmalıdır. Məktəblərdə tədbirlər olmalıdır ki, uşaq zamanından başlayaraq pis vərdişlərin qarşısı alınsın. Biz gənclərdə bununla bağlı könüllü olmağa hazırıq”.

***Ziya Hikmətoğlu***

# “Əgər valideyni olmayan insana dövlət dəstək çıxmasa...”



14 İyun: Bəli, son zəng və məzunlar artıq yeni həyata atılmaq üçün öz yeni yollarının astanasındadırlar. Kimi universitet imtahanlarına hazırlaşır, kimi hər hansı peşəyə yiyələnmək üçün kurslar seçir, kimisi də xaricdə təhsil üçün xüsusi proqramlara müraciət edəcək. Bəs, Xüsusi Tipli İnternat məktəbini bitirən şagirdlər necə? İllər boyu valideyn qayğısına həsrət, dünyaları isə kiçik məktəblərindən ibarət olan bu qrupa məxsus uşaqları nələr gözləyir? Valideyn və ya bir böyük dəstəyi olmadan bütün bu çətinliklərdən necə baş çıxaracaqlar ? Məsələ ilə əlqədar SIA-nın araşdırmasını təqdim edirik:

Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə: “Xüsusi Tipli İnternat məktəbini bitirən şagirdlər məktəbdə oxuduqları müddətdə təhsillə bərabər peşə bacarıqları istiqamətində də onlarla iş aparılıb. Əlbəttə, fiziki qüsurlu gənclərin heç də hamısı uğurlu işlə təmin olduğunu deyə bilməsək də, onların arasında uğurlu olanlar da var. Bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyi daha çox peşəyönümlü kurslar, ixtisas bacarıqlarının artırılması istiqamətində qrup şəkildə işlər aparırlar.

Həmin uşaqlar rəsmi qaydada bu peşələrə yiyələnir, öyrənirlər. Bu kurslarda daha çox dərzilik, ayaqqabı təmiri, kompüter bacarıqları kimi bir sıra peşə sahələrinə yiyələnirlər. Yəni, fiziki qüsurlu insanların görə biləcəyi bütün peşə sahələrində kurslar keçirilir. Eyni zamanda Məşğulluq İdarəsi tərəfindən onların işlə olunmasına şərait yaradılır. Xüsusi qayğıya ehtiyacı olan qrupla bağlı ƏƏSMN-nin yetərincə proqramları var. Son illər müşahidə edirəm ki, bu sahədə çox böyük işlər görülür. Sadəcə bizim üçün bilmək yaxşı olar ki, bu bacarıqlar İnternat Məktəbində həmin uşaqlara hansı səviyyədə öyrədilir. Lakin ƏƏSMN-nın bu məsələdə üzərinə düşən nədirsə Sosial Xidmətlər Agentliyi tərəfindən yaxşı təşkil olunur və sözügedən qrupa daxil olan şəxslər işlə təmin olunurlar. Valdeyn qayğısından məhrum olmuş uşaqların da mənzil hüquqları, sağlamlıqları ilə bağlı məsələlər də öz həllini tapır”.

Sosioloq, jurnalist Elçin Bayramlı: “İnternat məktəbini bitirən uşaqların problemləri uzun müddətdir getdikcə gərginləşir. Sovet zamanı bu məsələ ilə əlaqədar xüsusi dövlət yanaşması vardı. Həmin uşaqların İnternatdan sonrakı həyatının təmin edilməsi üçün onlara yataqxanalarda yer ayrılır, müəssisə, zavod, fabriklərdə, dövlət idarələrində iş yerləri verilir, müxtəlif güzəştlər tətbiq olunurdu. Məsələn, təkmilləşdirmə kurslarına, peşə məktəblərinə göndərilir və onların həyatda özlərinə yer tutmasına şərait yaradılırdı. Amma sonrakı dövrlərdə bu məsələ tamamilə aradan qalxdı və həmin uşaqlar taleyin ümidinə buraxıldı”.

Sosioloqun sözlərinə görə, ətrafımızda da görürük ki, iş verənlər onların işə götürülməsində maraqlı deyillər: “Evləri, işləri yoxdur deyə ailə qurmaqla bağlı problemlər də yaşayırlar. Bu uşaqlar cəmiyyətdə bir qrup əmələ gətirirlər ki, həmin qrup tamamilə sahibsiz, dövlət və cəmiyyət tərəfindən sahib çıxılmayan qrup formalaşır. Onlar cinayət aləminə daha çox qədəm qoyurlar. Kriminal qrupların üzvlərinə baxsaq görərik ki, həmin qruplaşmaların 70-80 faizi bu cür uşaqlardır. Sosial Xidmətlər Agentliyi ola bilər ki, bu məsələdə müəyyən qədər işlər görür, lakin bu kütləviləşməyib və lazım olduğundan da dəfələrlə aşağıdır. Bununla bağlı biz mətbuatda da ciddi rəqəmlərə rast gəlmirik. Əslində, onların elə böyük səlahiyyətləri də yoxdur. Həmin qurum özəl şirkətlərə də əmr verə bilməzlər ki, İnternat məktəbini bitimiş uşaqları işə götürün”.

E.Bayramlı vurğulayıb ki, bu cür uşaqların dövlət orqanlarında da işə düzəlmək ehtimalları da çox azdır: “Bununla bağlı tək yol xüsusi Dövlət Proqramının qəbul olunmasıdır və bəzi qanunlara dəyişiklik edilərək məcburi qaydalar qoyulmalıdır: “Əlil kvotaları olduğu kimi hansı ki, özəl və dövlət müəssisələrində müəyyən faizlə əlil şəxsin işləməsi vacibdir, eləcə də bu cür kvota xüsusi qayğıya ehtiyacı olan qrup üçün qoyulmalıdır. Yəni, onlar hiss etməlidir ki, dövlət onların arxasında dayanır. Əgər, valideyni olmayan insana dövlət dəstək çıxmasa, ona artıq başqaları sahib çıxacaq”.

***Aysel Məmmədova***



"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2020-Cİ İL TARİXİNƏ MÜHASİBAT BALANSI.

| Bölmə, maddə №-si | | Hesabın №-si | Manatla |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| I | **Uzunmüddətli aktivlər** | | |
| 11 | Torpaq, tikli və avadanlıq | 111-112+103 | 29492 |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | 20654 |
| | Cəmi uzunmüddətli aktivlər | | 50146 |
| 2 | **Qısamüddətli aktivlər** | | |
| 20 | Ehtiyat hissələri | 20X | - |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 8 |
| | Cəmi qısamüddətli aktivlər | | 8 |
| | CƏMİ AKTİVLƏR | | 50154 |
| | **KAPİTAL VƏ ÖHDƏlİKLƏR** | | |
| 3 | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 301-302 | 89500 |
| 33 | Kapital ehtiyatları | 33X | 11215 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödınilməmiş zərər) | 34X-344 | (68729) |
| | Cəmi kapital | | 31986 |
| 5 | **Qısamüddətli öhdəliklər** | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 18168 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 18168 |
| | **Cəmi öhdəliklər:** | | 18168 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR: | | 50154 |

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2020-Cİ İL TARİXİNƏ TƏSƏRRÜFAT MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏSİ (MƏNFƏƏT VƏ ZƏRƏR)

| Sıra №- | Maddələr | Manatla |
|---|---|---|
| | Gəlirlər | |
| 1. | Avtonəqliyyat xidmətindən | 7730 |
| 2 | Sair əməliyyat gəliri | - |
| | Cəmi gəlir | 7730 |
| | Xərclər | |
| 1. | Əmək haqqı | 6180 |
| 2. | DSMF-yə ayrım | 1294 |
| 3. | Vergi ödəmələri | 96 |
| 4. | Amortizasiya xərcləri | 3256 |
| 5 | Sair xərclər | 1454 |
| | Cəmi xərc: | 12280 |
| | Əsas fəaliyyətin nəticəsi -Ziyan | 4550 |
| | Ümumi nəticə -Mənfəət | 4550 |

Səh 6.

"Şamaxı Sərnişin" ATSC-nin idarə heyətinin sədri Nəhmətov M.Ə.

ŞAMAXI SƏRNİŞİN SERVİS Məhdud Məsuliyyətli Cəmiyyəti

# Azərbaycanda ilk jest dili lüğətinin veb-səhifəsinin hazırlanması işləri davam edir



***Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) elan etdiyi "Sosial layihələr" müsabiqəsinin qaliblərindən olan "Doğma jest dili" layihəsi çərçivəsində "NAR"ın maliyyə dəstəyi ilə veb-saytın hazırlanması işləri davam etdirilir. 3 aydan artıq davam edən hazırlıq müddətində 3000-dən çox söz və söz birləşməsi jestlərinin izahedici mətnləri, şəkilləri və videoları sayta yerləşdirilib.***



"Doğma jest dili" lüğətinin elektron variantı eşitmə və nitq məhdudiyyəti olanlar və onların yaxınları, həmçinin bu qrup insanlarla işləyənlər üçün faydalı vəsait olacaqdır. Bundan başqa, saytın mobil versiyasının da hazırlanması nəzərdə tutulur.

Xatırladaq ki, "Karlara Dəstək" İctimai Birliyi tərəfindən müsabiqəyə təqdim edilən "Doğma jest dili" layihəsinin əsas məqsədi eşitmə və nitq qabiliyyəti məhdud olan insanların əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətinin artırılması və ətrafdakı insanlarla ünsiyyətin təşkil olunmasını xidmət edən jest dili lüğətinin hazırlanmasıdır. Qeyd edək ki, "Nar" eşitmə və nitq məhdudiyyəti olan insanların cəmiyyətə inteqrasiyası üçün müxtəlif layihələr icra edib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8740-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Gürcü ekspert: Türkiyə Prezidentinin Şuşaya səfəri regionda yaranmış yeni reallıqların göstəricisidir



Rəcəb Tayyib Ərdoğanın azərbaycanlılar üçün önəmli şəhər olan Şuşaya səfəri xarici ölkənin dövlət başçısı kimi, Türkiyə Prezidentinin Qarabağa ilk səfəri kimi tarixə düşüb. AZƏRTAC xəbər verir ki, bunu Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun eksperti, professor Zurab Batiaşvili deyib. Politoloq bildirib ki, Türkiyə Şuşada konsulluq açmaqla Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəyini bir daha təsdiqləmiş olacaq. "Ərdoğanın Şuşa səfəri regionda İkinci Qarabağ müharibəsindən sonra yaranmış reallıqların göstəricisidir. Ankara müharibə zamanı olduğu kimi, bu gün də əsas müttəfiqi olan Azərbaycanı dəstəkləməkdə davam edir", - deyə Zurab Batiaşvili vurğulayıb.

## Peşəkar diplomatiyası və xarici siyasəti olmayan Ermənistan özünü beynəlxalq aləmdən təcrid edib

Ermənistanın peşəkar diplomatiyası və düzgün xarici siyasəti yoxdur. Bu səbəbdən də ölkə özünü beynəlxalq aləmdən və beynəlxalq siyasətdən təcrid edib. Ermənistanın xarici siyasəti və diplomatiyası tamamilə iflasa uğrayıb. AZƏRTAC xəbər verir ki, bunu beynəlxalq məsələlər üzrə erməni ekspert Suren Sarqsyan Feysbuk səhifəsində yazıb. Ermənistan rəhbərliyinin yürütdüyü xarici siyasət kursunu və diplomatiyasını sərt tənqid edən ekspert yazır: "Ermənistan-Rusiya əlaqələri strateji müttəfiqlik münasibətlərinə qətiyyən uyğun gəlmir. Ermənistan-ABŞ münasibətləri isə daha aşağı səviyyədədir. Birləşmiş Ştatlarla münasibətlərin gündəliyində olan yeganə məsələ ABŞ-ın yardımlarıdır. Ermənistan-ABŞ münasibətləri bundan uzağa getmir".


Suren Sargsyan
7 saat ·
Յուսամ շատ շուտով մենք կունենանք ռեալպոլիտիկից բխող պրագմատիկ արտաքին քաղաքականություն: Դրա այլընտրանքը վերջնական կործանումն է:
Վերջին երեք տարիներին Հայաստանի իշխանությունները կարողացել են միաժամանակ հարաբերություններ փչացնել բոլոր աշխարհաքաղաքական կենտրոնների և մեզ համար ռազմավարական նշանակություն ունեցող մայրաքաղաքների հետ:

Ekspertin fikrincə, ikitərəfli münasibətlər üçün standart sayılan Ermənistan-Çin münasibətləri son üç ildə qeyri-adekvat hala gəlib. Avropa İttifaqı ilə əməkdaşlıq və əlaqələr istiqamətində də ciddi addımlar atılmır, uyğun gündəlik formalaşdırılmır. Bu qurumla münasibətlərin gündəliyi yalnız İttifaqın maliyyə dəstəyi və yardımından ibarətdir.

"ATƏT, BMT, NATO və digər beynəlxalq təşkilatlarla ciddi əməkdaşlıq da yoxdur", - deyə Sarqsyan vurğulayıb. Ekspert, həmçinin bildirib ki, Ermənistanın qonşusu olan İran və Gürcüstanla siyasəti də anlaşılmır.

# İnsan beyni ilə bağlı maraqlı faktlar

*İnsan beyni bir çox işi eyni anda yerinə yetirən sistemə malikdir. İnsan beyninin qeyri-adi qabiliyyəti sayəsində eyni anda bir çox işi görə bilirik. Bu uyğunluğu təmin edən isə beyindəki sinir hüceyrələrinin bir-birləri ilə əlaqəsidir. SİA insan beyni ilə bağlı maraqlı faktları təqdim edir:*



**1.** İnsan beyninin ağırlığı təxminən 1.3 kiloqram civarındadır.

**2.** Beyniniz ölməyə başlamazdan əvvəl ən çox 4-6 dəqiqə arasında oksigensiz qala bilər.

**3.** Beyninizdə tam 100 milyard sinir hüceyrəsi var.

**4.** "İnsan beyninin yüzdə onunu istifadə edir" deyimi səhvdir. Beynin hər bölgəsinin bir funksiyası vardır.

**5.** Hər insan doğulanda eyni sayda beyin hüceyrəsinə malik olur.

**6.** Toxunma duyğusu ilk yaranan duyğudur. Ana bətnində olarkən əmələ gəlir.

**7.** Beyninizi davamlı işlədin. Kitab oxumaq, test və ya krossvord həll etmək yaddaşı gücləndirir.

**8.** Hər vaxt müsbət düşünün. Araşdırmalar həkimlərə müraciət edənlərin yüzdə 60-nın psixoloji səbəblərlə həkimə müraciət etdiyini ortaya qoyur.

**9.** Qidalanmanın beynə olduqca faydalı təsiri vardır. Nyu-Yorkda aparılan bir araşdırmada günorta yeməyində süni souslar və qidalandırıcılar istifadə etməyənlərin IQ səviyyələrinin digərlərinə nisbətən yüzdə 14 daha yüksək olduğunu ortaya qoyub.

**10.** Bir şey xatırladığınız, öyrənmə zamanı və yeni düşüncələr yaratdığınız hər an beyninizdə yeni əlaqələr qurursunuz.

**11.** Qoxu vasitəsilə əldə etdiyiniz bir xatirəniz, beyninizdə qurulan ən romantik əlaqədir.

**12.** Yuxunuzu təşkil edin. Beyninizin ən çox istirahət etdiyi an yuxuda olduğunuz anlardır.

**13.** Beyin gün ərzində 12 vatt gücündə enerji sərf edir. Vücud ağırlığının sadəcə 2 %-ni təşkil etməsinə baxmayaraq, beyin bütün enerjisinin 20 %-ini işlədir. Diqqətli və uzun düşünmə vaxtı sərf etdiyimiz enerji o qədər kiçikdir ki, heç hiss də olunmur.

**14.** Gurultulu bir otaqda nə üçün telefonla danışmaq çətindir? Bu vəziyyətdə beyniniz telefondakı yoldaşınızın səsi ilə otaqdakı digər səsləri ayırd etməkdə çətinlik çəkir. Telefonunuzun mikrofonunu əlinizlə bağladığınız anda əslində içində olduğunuz otaqdakı səslərin telefona girməsinə mane olduğunuz üçün səs qarışığına mane olmaqla beyninizin işini asanlaşdırır.

*Ayşən Vəli*

# Onun təyyarəsi var...özü də "qızıl"dan...



Etiraf edilməlidir ki, bu gün Orta Asiya ölkələri əhalisinin əksəriyyəti işləmək üçün daha çox Rusiyanı seçirlər. Təbii ki, biz burada bəzi istisnalara da diqqət çəkməliyik. Xatırlatmaq yerinə düşər ki, son zamanlar Qazaxıstan da artıq özündə "təpər" taparaq, ölkəyə işçi miqrantlar cəlb etməyə başlayıb. Deyilənə görə, bu gün Rusiya ilə müqayisədə Qazaxıstanı "yaxın" bilib bu ölkəyə üz tutan orta asiyalı işçi miqrantların sayında artım müşahidə edilməkdədir. Ancaq etiraf edilməlidir ki, bu orta asiyalı işçi miqrantlar arasında ən azlıq təşkil edənlər türkmənlərdir. Qeyd edim ki, bu, hazırda Türkmənistanda iş yerlərinin çoxluğu, türkmənlərin öz ölkələrində iş-gücsüz qalmaması anlamına gəlməməlidir. Sadəcə, türkmənlər üçün ölkədən çıxış, sadəcə olaraq, yasaq edilib: yəni acından da ölsən öz ölkəndə ölməlisən.

...Bəzi iddialara görə, bu gün Orta Asiya dövlətləri inkişaf etmək kateqoriyasındadır. Amma o da maraqlıdır ki, son zamanlar Orta Asiya dövlətləri ilə bağlı rastlaşdığım yazıların əksəriyyətində bu regionda zənginlərlə kasıb təbəqələr arasında böyük bir uçurumun yarandığı iddia edilir.

Bayaq, Orta Asiya dövlətlərinin inkişafını xatırlatdım. Təbii ki, bunu Türkmənistanın paytaxtı Aşqabadda son illərdə tikilən yenigörünüşlü tikililər də təsdiq edir. Amma maraqlıdır, şəhərdə tikilən bu göydələnlərdə heç kim yaşamır, yəni bütün yaşayış binaları hələ də sahibsizdir. Niyə?.. İmkansızlıq...

Belə ki, bu günlərdə Dünya Bankı Türkmənistanı son Qlobal İqtisadi Perspektivlər hesabatından çıxarıb. Maraqlıdır ki, Dünya Bankı əsas kimi isə, respublikanın iqtisadi göstəricilərinin "etibarlı keyfiyyət məlumatlarının" olmaması ilə əlaqələndirib. Xatırladaq ki, bu ilin aprel ayından etibarən Beynəlxalq Valyuta Fondu Aşqabadın rəsmi dövlət statistikasından istifadə etməyi dayandırıb. Bilirsiniz niyə, çünki Türkmənistan hökuməti son bir ildə ölkədəki ÜDM-də artım tempinin 5,9 olduğunu dediyi halda, Beynəlxalq Valyuta Fondu bu göstəricini 0,8 faiz kimi təqdim edib. Maraqlıdır ki, bununla razılaşmayan Aşqabad isə beynəlxalq təşkilatlar tərəfindən təqdim edilən iqtisadi göstəriciləri tanımadığını bəyan edib.

Yeri gəlmişkən, bildirim ki, bu günlərdə türkmən saytlarının biri ölkədəki işsizliyin, kasıbçılığın tüğyan etdiyi bir vaxtda ölkə rəhbərinin özünə üçüncü "Boeinq" təyyarəsi aldığını bildirib.

Saytın yazdığına görə, təyyarənin iç hissəsində Amerika şirkətlərindən biri tərəfindən aparılan dizayn işləri təyyarənin özündən, demək olar ki, iki-üç dəfə bahadır. Belə ki, təyyarənin daxili hissəsi qızıl və qızıl suyuna salınmış ornamentlərlə bəzədilib. Bundan əlavə, təyyarənin qızılla işlənmiş salonundakı divarda Türkmənistanın zərli bir xəritəsi də yer alıb. Təbii ki, bütün bunlar başadüşüləndir. Yəni təyyarənin "sahibi vətənpərvər, vətənini sevəndir".

...Amma sual doğuran məsələ budur ki, illərlə ölkədən heç bir yerə çıxmayan ölkə rəhbərinin bu qədər təmtəraqlı təyyarə hazırlatmasına nə hacət vardı?

***Ağasəf Babayev***

# Putin və Baydenin təyyarələri və limuzinlərinin müqayisəsi





*Qərb mətbuatı dünyanın 2 ən güclü dövlətinin liderlərinin maşınlarını və təyyarələrini araşdırıb. Vladimir Putin və Co Bayden dünyanın taleyini həll edərkən, adi insanlar və jurnalistlər kortejləri və təyyarələrini müqayisə ediblər. SİA mövzu ilə bağlı xarici mediada yayılmış məqamları təqdim edir.*

## Putin və Baydenin maşınları

Daily Mail-in (İngiltərə) verdiyi məlumata görə, Bayden sammitə 1,5 milyon dollar dəyərində "The Beast" (Vəhşi) adlı zirehli ABŞ istehsalı "Cadillac"-la gəlib. Putin isə Cenevrədəki sammitə 4.4 litrlik V8 mühərrikə və 598 at gücünə malik Rusiya istehsalı "Aurus Senat"ında gəlib.





Ekspertlər, Vəhşi"nin gecə görüş kameraları, gözyaşardıcı qaz topları və bomba partlayışına davam gətirən 20 santimetrlik zirehlə təchiz olunduğunu qeyd edirlər. Qapılarının çəkisi "Boeing 757" ilə eynidir və təkərlər deşilmir.

Avtomobildə, həmçinin fövqəladə vəziyyətlər üçün təhlükəsiz bir oksigen sistemi və prezidentin öz qanı ilə təchiz olunmuş sistem vardır. Kimyəvi və bioloji hücumlardan qorunmaq üçün 7.6 santimetr qalınlığında pəncərələri olan güllə atışlarına və partlayışlara da davam gətirir. Poladdan və keramikadan hazırlanmış birləşmiş zirehin qalınlığı 20 santimetrdir.

Qeyd edək ki, ABŞ prezidentinin standart kortejində "nüvə futbolu" olan bir maşın və təcili tibbi yardım da daxil olmaqla ortalama 70 avtomobil var.

Putinin limuzini isə, Rusiyanın lüks avtomobil brendi NAMI-nin oxşar şəkildə qorunan (ən yüksək səviyyəli) zirehli rəhbər sinifə məxsusdur. Avtomobil ən yüksək texnologiyalarla təchiz olunub və istənilən şəraitdən, istənilən hücumdam etibarlı müdafiə təmin edir.

Tam olaraq Rusiya istehsalı olan "Aurus Senat" keyfiyyət, komfort, təhlükəsizlik və gücünə görə dünyanın ən yaxşı avtomobilləri sırasındadır. Aurus "Senat"ın mülki modelləri də var və müxtəlif modifikasiyarda məhdud sayda istehsal olunur.

## Dövlət başçılarının təyyarəsi

Dövlət başçılarının təyyarələrini xatırlasaq, Rusiya prezidentinə xidmət edən "Rossiya" uçuş dəstəsinin ixtiyarında bir neçə "İl-96-300PU", "Tu-204" və "Tu-214" təyyarəsi var. 1 nömrəli bort " İl-96"-dır. Bu model mülki aviasiya üçün tipik bir təyyarədir. Ancaq əlbəttə ki, Putinin "Bort-1"-i xüsusi rabitə sistemləri, raket buraxılışından qorunma sistemləri və iş üçün lazım olan hər şeylə təchiz olunmuşdur.

ABŞ-ın "1 nömrəli bort"u "Boeing-747" təyyarəsinin modifikasiyasıdır. Prezidentin təyyarəsi standart Boeing-747-dən ölçüsü, xüsusiyyətləri və quraşdırılmış təhlükəsizlik sistemlərinə görə fərqlənir. Təyyarənin 3 göyərtəsinin ümumi sahəsi 370 kvadrat metrdir.

Gəmilərin üçüncü göyərtəsində 85 telefon və 19 televiziya ekranı da daxil olmaqla ehtiyac duyduğunuz hər şeylə təchiz olunmuş komanda məntəqəsi və rabitə otağı var. Dövlət laynerlərinin İnternetə qoşulması sistemi 112 milyon dollara başa gəlib.

Əslində, Putin və Baydenin laynerləri təxminən bərabərdir - rahatlıq, təhlükəsizlik və rabitə sistemləri eyni səviyyədədir. Ancaq Putinin təyyarəsi kosmosdan praktik istifadəyə, Baydeninki isə Amerikanın özünə xas olan hegemonluq iddiasına vurğu edir. Qalan liderlər yüksək sinif laynerləri ilə uçurlar. Məsələn, Almaniya kansleri Angela Merkel "Airbus A340-300", Fransa prezidenti Emmanuel Makron isə "Airbus A330-200" istifadə edir. Beləliklə, prestij məsələsi həmişə belə hallarda 1-ci olur.

***Elçin***

ARAŞDIRMA

# Niyə küçədə yarıçılpaq gəzmək olmaz? - TƏHLÜKƏLİ SƏBƏB

*Yay mövsümü gələndən Bakıda ənənəvi mövzulardan biri yenə aktuallaşıb. Qızların, qadınların açıq-saçıq geyinməsi, bunun nəticəsində kişilərin haldan-hala düşməsi məsələsini deyirəm. Qısası, bəzi xanımlar "işə gecikdiyindən" və "skleroz olduqlarından" üst paltarı geyməyi unudaraq şəhərə yatmaq paltarında çıxırlar ki, bunun da nəticəsində ciddi problemlər yaranır. Vallah şişirtmirəm, bu, çox təhlükəli problemdir, belə ki, birbaşa insan həyatının itirilməsi ilə nəticələnə bilir. Necəmi? Mən yazım, siz oxuyun görün haqlıyam yoxsa yox...*



**Elçin Bayramlı**

Tutaq ki, gözəl və gənc bir xanım bir qarışlıq mini-yubkada minib avtobusa və qabaq sıraların birində əyləşib. Salondakı gənc oğlanların o saat avtobusun həmin qisminə yığılmasını qoyaq bir tərəfə. İndi bu zalım oğlu sürücü maşını necə idarə etsin? Qabaq tərəfə saysız-hesabsız güzgüləri yuxarıdan aşağıya, sağdan-sola, diaqanal vəziyyətdə havayı yerəmi düzüb?

Xülasə, bu məzlum sürücü yola baxmaq əvəzinə qabaq şüşənin lap aşağısında yerləşən həmin böyüdücü güzgülərdən xanımı seyr etməyə bilərmi? Xeyr, Azərbaycanda bu mümkün deyil! Əvvəla, biz müsəlmanıq, ağlımız kəsməyəndə zorakılığa məruz qoyulmuş, dinin və elmin tələblərinə zidd olaraq sünnət olunmuşuq, ona görə də seksual temperament, cinsi natamamlıq kompleksi yüksək səviyyədədir.

İkincisi, bizim xalqın kişiləri belə mənzərələrə o qədər də öyrəncəli deyil, adicə küçədə yeriyərkən dönüb qısa şortik-maykada qarşısından keçən bir xanımın arxasınca baxanda qarşıdan gələnlə toqquşmurlarmı? Küçədə bu əməliyyat kiçik xəsarətlə qurtara bilər, amma avtobusda vəziyyət fərqlidir. Sürücü yola baxmağın başını buraxaraq salondakı mənzərələri seyr edib feyziyab olmağa başlayanda qəza baş verə bilər. Nəticədə xeyli sərnişin və özü o dünyaya yollana bilər.

Konstruktorlar üzümüzə baxıb, metro qatarlarında maşinist vaqonun içini görmür, yoxsa tələfat daha kütləvi olardı. Lakin metroda da başqa problem var. Stansiyaya yarıçılpaq nazənin daxil olarkən bəzi polislər sərnişinlərin yüklərini dedektordan keçirməyin başını buraxıb, bu mənzərəni seyr etməyə, bəzən söz atmağa girişirlər ki, bu da metroya kiminsə rahatca bomba keçirməsinə imkan yarada bilər.

Təsəvvür edin ki, bir xanım dar kalqotkada və ya bir neçə sm-lik mini-yubkada, sinəsi və beli açıq şəffaf koftada svetoforun qırmızı işığını filanı vecinə almayaraq nazlana-nazlana səkkizvari yerişlə yolu keçir! Bütün sürücülərin başları eyni istiqamətə dönəcəkmi? Dönəcək! Burda zəncirvari qəza baş verəcəkmi? 100 faiz! Nəticədə azı bir neçə nəfər həlak olacaq, bir neçə avtomaşın sıradan çıxacaq, ölkə iqtisadiyyatına zərər dəyəcək!

Mən özüm bir neçə dəfə belə qəzaların şahidi olmuşam. Düzdür, yol polisləri sənədləşdirəndə qəzanın səbəblərini bir az dəyişdiriblər ki, ayıbdır, rüsvayçılıq olmasın, dünyada bizə gülməsinlər. Amma hər halda biz özümüz gözümüzlə gördüyümüzü necə unuda bilərik?

Ötən həftə maraqlı bir mənzərənin şahidi oldum. Küçə ilə tək gedən yarıçılpaq qıza ilişmək yarışında da bir-birinə güzəştə getməyən iki qaqaş əvvəl türmə jarqonu ilə sözləşib, sonra qaydasız döyüşə başladılar. Bunlar al-qana qərq olduqları vaxtda həmin qız qulağında nauşnik dingildəyə-dingildəyə, daha doğrusu "səkkiz yaza-yaza" yoluna davam edirdi...

Belə misalları çox gətirə bilərəm, amma başınızı niyə ağrıdım ki? Qısası, dediyim odur ki, xanımlarımız bir az ehtiyatlı olsunlar, normal paltar geyinsinlər əyinlərinə. Başa düşürük, yaydır, istidir. Amma bir bu cinsi natamamlıq kompleksi olanları da nəzərə alın. Vallah indiki zamanda ölmək yaşamaqdan bahalıdır.

Həm də bu istilər təkcə sizə təsir etmir ki? Bəs biz (kişilər) niyə lüt-üryan küçəyə çıxmırıq? Biz başa düşürük, indi parça bahadır, çox qızlar və qadınlar imkansızlıq ucbatından az parça ala bilirlər. Yazıq dərzi də neyləsin, bundan ancaq mini-yubka çıxa bilər. Dükanlarda da "mini"lər uzun yubkalardan, kalqotkalar normal şalvarlardan ucuzdur. Ona görə də, imkansız qadınları anlamaq olar. Yaxşı bəs varlı-hallı, yaşlı-başlı arvadların yarıçılpaq vəziyyətdə şəhərə çıxmasına nə deyirsiniz?

Soruşmaq ayıb olmasın, niyə kimsə durduğu... pardon, oturduğu yerdə naməlum dünyaya yollanmalıdır? Bəlkə birinin ailəsinin heç pulu və ya satmağa evi yoxdur ölü mərasimlərini və digər xərcləri ödəməyə?

Dediyim odur ki, əhəmiyyətsiz bir hal kimi görünən bu vəziyyət ciddi problemlər yaradır. Mən hələ bəzi məsələlərə- zorlamaların və təhlükəli xəstəliklərə yoluxmanın artmasında belə geyimlərin rolu və sair bu qəbildən olanlara- toxunmadım.

İndi gördünüzmü, ölüm sayının, yol qəzalarının, digər çoxsaylı problemlərin sayının sürətlə artmasında xanımların açıq-saçıq geyinməsinin nə qədər böyük rolu vardır? Uzun sözün qısası, əziz xanımlar, kişilərə yazığınız gəlsin, hoqqa çıxarmayın. Bəşəriyyət bu qədər böyük inkişaf yolu keçib, yenidən ibtidai icma quruluşuna qayıtmaq lazım deyil.

# Erməni media sahəsi nəyə cəhd edir?




### Ermənistandakı rusdilli proksi-ekspertlər tərəfindən ictimai rəyə, KİV-lərə və teleqram-kanallara çoxsaylı qeyri-dəqiq, Bakını, Ankaranı və Moskvanı bir-birinə vurmaq məqsədli informasiyalar ötürülür

Cənubi Qafqazda axır ki, hər şeyin öz yoluna qoyularaq tarazlaşma prosesinin getməsi görünməkdədir. Hətta İrəvanda, seçkiqabağı finişin kəskinliyinə baxmayaraq, daha çox strateji reallığı qəbul etmək və bu reallığın Ermənistan üçün üstünlük kimi qiymətləndirilməsi yönündə çağırışları edilir. Misal üçün, bu xüsusda Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan çıxış edib və revanşizm hisslərinin yerinə Azərbaycanla Türkiyə ilə münasibətlərin qurulması, Qarabağ iddialarından əl çəkilməsi və s. kimi müvafiq bəyanatlar səsləndirib. Lakin gəlin görək, digərləri ondan nümunə götürəcəklərmi, yaxud götürə bilmək qabiliyyətinə, iqtidarına malikdirlərmi? Bu, bir qədər çətin görünən məsələdir...

### İnformasiyalarda Bakı və Ankaranın guya Qarabağ məsələsində Rusiyadan istifadə etdikləri iddia olunur

Yəni problem ondadır ki, bir sıra erməni başbilənləri xüsusilə seçkiöncəsi mərhələyə önəm verməyərək, ölkənin informasiya məkanında özlərinin təxribatçı-paradoksal bəyanatlarını səsləndirir, regionda normal, sabit və sülhyönümlü mühitin yaranması çağırışlarını edənlərdən köklü şəkildə fərqlənirlər. Maraqlısı da budur ki, İkinci Qarabağ müharibəsindən sonrakı proseslərdə ölkənin ayağa qalxması üçün yaranmış ilk mümkün, münbit fürsətlərdən yararlanmaları yerinə belə qüvvələr Ter-Petrosyan xarakterli normal düşüncəli adamlara dərhal badalaq vurmağa başlayırlar. Belə olan halda, problemlərin aradan qaldırılmasında yalnız Ermənistanın normal düşüncəli şəxsləri və Azərbaycan deyil, eləcə də Rusiyanın da marağının olduğunu düşünərsək, onda sülhün bərqərar olmasına qarşı yönəldilən digər məsələlər də ortaya çıxmış olur. Misal üçün, indi Ermənistandakı rusdilli proksi-ekspertlər tərəfindən ictimai rəyə, KİV-lərə və teleqtam-kanallara çoxsaylı qeyri-dəqiq, Bakını, Ankaranı və Moskvanı bir-birinə vurmaq məqsədli informasiyalar ötürülür. Həmin informasiyalarda Bakı və Ankaranın guya Qarabağ məsələsində Rusiyadan istifadə etdikləri iddia olunur.

### Erməni proksi-ekspertləri nədənsə Ankaranın Avrasiya əməkdaşlığı yönündəki irimiqyaslı planlarının olması barədə bir kəlmə də olsun danışmırlar, çünki bu, onlara sərf etmir

Məhz bu kontekstdən çıxış edərək planın ikinci hissəsinə keçid edilir - onlar, yəni Azərbaycan və Türkiyə guya NATO-nu regiona gətirəcəkmişlər və bundan sonrakı dəhşətli qərarlarını verəcəkmişlər, Rusiyanı regiondan sıxışdırıb-çıxaracaqmışlar və s. Erməni proksi-ekspertləri hətta bunun üçün "tarixi ekskurs" da edərək ötən əsrin əvvəllərindəki prosesləri "sübut" olaraq ortaya atırlar. Sən demə, XX əsrin 20-ci illərində Moskva kardinal şəkildə Atatürkə dəstək göstərdi, o isə Qərbə tərəf çevrildi və Türkiyə 1952-ci ildə NATO-ya üzv seçildi və bununla da münasibətlərə xitam verildi. Amma fakt budur ki, hətta SSR-inin dəmir pərdəsinin hökmranlıq etdiyi zamanlarda Moskva ilə Ankara bütün mümkün əlaqələrini saxlamaqla yanaşı, ölkələrarası əməkdaşlıqlarını kənd təsərrüfatı, sənaye və başqa istiqamətlərdə qururdular, diplomatik münasibətlər isə ən yaxşı vəziyyətdə qorunub-saxlanılırdı. Bu barədə isə çoxsaylı faktlar, dəlillər və sübutlar mövcuddur.

İndi isə diqqət: Erməni "ağıllıları" yuxarıda qeyd edilən misalı gətirməklə 70-100 il əvvəl baş verən siyasi prsoesləri mövcud vəziyyətə uzlaşdırırlar və iddia edirlər ki, Rusiya bu dəfə Azərbayana öz problemlərini həll etməyə imkan verdi və indi Türkiyə-Azərbaycan tandeminin yolu dəyişilərək birtərəflidir - Vaşinqtona tərəf (?!). Başqa tərəfdən, erməni proksi-ekspertləri situasiyanı daha da gərginləşdirmək üçün Böyük Turan ideyasının reallaşdırılmasının an məsələsi olduğunu bəyan edirlər. Lakin nədənsə Ankaranın Avrasiya əməkdaşlığı yönündəki irimiqyaslı planlarının olması barədə bir kəlmə də olsun danışmırlar, çünki bu, onlara sərf etmir. Belə ki, Avrasiya əməkdaşlığında Rusiyanın da özəl maraqları dayanır və bu məsələdə Ankara ilə Moskvanın demək olar ki, bütün planları üst-üstə düşür.

Və sən demə, Kremldə oturanlar da bütün ümidlərini Rusiyanın ermənipərəst mediaresurslarında fəaliyyət göstərən, soyadları "yan"la bitən "Rusiya vətənpərvərlərinədir", məhz onlar Rusiyanı Qərbdən gələn təhlükələrdən xəbərdar edir, qoruyurlarmış...

Amma burada görünən, ya da görünməyən daha bir element var - həmin erməni "ağıllılarının" öz sərsəm, araqatan proqnozları ilə Rusiyanı barmaqlarına dolamaq məsələsi! Belə çıxır ki, çoxəsrlik imperiya tarixinə, diplomatiya məktəbinə, kəşfiyyatına və ordusuna malik Rusiya sadəlövh, dar düşüncəli və hər deyilənə inanandır? Hətta o qədər sadəlövhdür ki, onu Azərbaycan və Türkiyənin simasında uzanan "caynaqlardan" qurtarmaq lazımıymış və bunu da ermənilər edəcəkmişlər (?!).

Və sən demə, Kremldə oturanlar da bütün ümidlərini Rusiyanın ermənipərəst mediaresurslarında fəaliyyət göstərən, soyadları "yan"la bitən "Rusiya vətənpərvərlərinədir", məhz onlar Rusiyanı Qərbdən gələn təhlükələrdən xəbərdar edir, qoruyurlarmış...

Təbii ki, məqsəd bəllidir - Kremlin Bakı və Ankaraya doğru kooperativ köklənməsinin qarşısını almaq. Məhz bu cür çoxsaylı tirajlamalar vasitəsi ilə erməni proksi-ekspertləri öz media ruporlarının vasitəsi ilə Moskvaya təzyiqlərini artırır, qəbul edilən münbit qərarların başa çatdırılmaması üçün təsirlərini göstərirlər. Daha dəqiq desək, Moskvanın regionun tənzimləmə fəaliyyətində əsas qarant roluna müdaxilə edən erməni başbilənləri fundamental perspektivlərə hesablanmış və çoxillik konfrontasiyaya son qoyacaq razılaşmaları arxa plana keçirməyə cəhdlər göstərirlər.

### Azərbaycanın NATO ilə partnyorluğu heç vaxt Rusiya üçün gizli olmayıb və sirr də sayılmır, hətta bunu Rusiyanın prezidenti Vladimir Putin də dəfələrlə bəyan edib

Maraqlıdır ki, erməni mediaprovokatorları bu kimi məsələlərdə əsas rollardan birini alan Rusiya prezidenti Vladimr Putinin də qərarlarına qarşı çıxırlar. Növbəti məqama da diqqət yetirək. Artıq bir neçə gündür ki, ermənilərin rusdilli resursları Bakı-NATO əməkdaşlığı mövzusuna da toxunmağa başlayıblar və ümid edirlər ki, həmin əməkdaşlıq anti-Rusiya xarakterlidir və Moskvanın diqqətini cəlb edəcək. Lakin rəsmi səviyyədə bəyan edilib ki, Azərbaycan NATO ilə dialoq əməkdaşlığında maraqlıdır, xüsusilə ictimai diplomatiya və feyk xəbərləri ilə mübarizə sahəsində. Ümumilikdə isə Azərbaycanın NATO ilə partnyorluğu heç vaxt Rusiya üçün gizli olmayıb və sirr də sayılmır, hətta bunu Rusiyanın prezidenti Vladimir Putin də dəfələrlə bəyan edib.

Bundan əlavə, əgər yüksək etimadlı münasibətlər olmasa idi Rusiya sülhməramlıları da regionda fəaliyyətə başlamazdılar. O cümlədən, Bakı Rusiya Federasiyasının Baş Qərargahının rəisi və NATO-nun Avropadakı Birləşmiş Güclərinin komandanı arasındakı mütəmadi görüşlərinin meydanı rolunu alıb. Yəni Bakı bu gücləri bir araya gətirən mühüm mərkəz rolunda çıxış edir. Elə isə erməni başbilənlərinin bu məsələdə də araqatanlıq əməlləri iflasa uğrayır və görünür, təxribatçı planlarını qurarkən, Bakının birləşdiricilik reallığını tamamilə unudublar. Unudublarsa, onda daha yaxşı olardı ki, İkinci Qarabağ müharibəsindən sonra yaranmış vəziyyətdən çıxış yollarını axtarmaları üçün necə deyərlər, başlarını sındırsınlar, sülhün bərqərar olması istiqamətində iş və fəaliyyət qursunlar. Əks halda, onları daha betər bəlalar gözləyə bilər. Bunu ki, biz demirik, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan bəyan edir...

**Rövşən RƏSULOV**

ANALİTİK+ÖZƏL

# Tarix unudulmur...

## Antimilli ünsürlərin və onların xarici havadarlarının siyasi hoqqabazlıqları uğursuzluğa məhkumdur

***Proqnozlar özünü tam doğrultmaqdadır. Azərbaycan əleyhinə olan beynəlxalq siyasi dairələr və onların miskin əlaltısına çevrilmiş antimilli ünsürlər yenidən fəallaşmaqdadırlar. Həmin qüvvələr Azərbaycanın müstəqil siyasət yürüdən güclü dövlətə çevrilməsindən, ölkəmizin dünyada qalib və güclü dövlət olmasından ciddi narahatdırlar. Azərbaycanın uğurlarını həzm edə bilməyən xarici və daxili bədxahlarımız unudurlar ki, heç bir qüvvə ölkəmizi öz düzgün yolundan sapdıra bilməz. Taleyimiz öz əlimizdədir. Ölkəmizdə mövcud xalq-hakimiyyət birliyi sarsılmazdır.***



Xalq Prezident İlham Əliyevi birmənalı olaraq dəstəkləyir. Prezident də hər hansı beynəlxalq siyasi dairələrin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət həyata keçirir. Bu, xalq-hakimiyyət birliyini güclü edən həlledici amildir. Eyni zamanda, bu, monolitliyin xarici bədxahlarımızın və “sapı özümüzdən olan baltalar”ın hədəfinə çevrilməsini şərtləndirən mühüm səbəbdir. Qoy antimilli ünsürlər və onların xarici havadarları unutmasınlar ki, onların siyasi hoqqabazlıqları həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa məhkumdur.

### Əli Kərimli - xəyanətkarlıq siyasi fəaliyyətinin əsas qayəsidir

Bəli, bu, o Əli Kərimlidir ki, erməni lobbisindən aldığı çirkli pullarla xaricdə öz biznesini qurmaqla, ailəsinə lüks həyat şəraiti yaratmaqla məşğuldur. AXCP-nin sabiq funksioneri Paşa Umudov mətbuata açıqlamasında bildirib ki, Əli Kərimlinin partiyanın hesabına əldə etdiyi milyonlardan özü və ailəsi komfortlu bir həyat tərzi yaşayır. Əvəzində sıravi cəbhəçilər istismar edilir və ən acınacaqlı bir durumda yaşayırlar. O, KİV-ə ünvanladığı məktubunda bildirir ki, uzun illərdir sədaqətlə AXCP ideyalarına xidmət etsəm də, son dövrlər təşkilat daxilində baş verənlər məni və ətrafımda olan bir çox cəbhəçiləri Əli Kərimlini oyunbaz və dələduz şəxs kimi tanımağa vadar etmişdir: “AXCP-nin çətin durumda olduğu, üzvlərinin uşaqlarının boğazından kəsib partiyaya çətinliklə üzvlük haqqı verdiyi bir zamanda ətrafa diqqətlə baxanda gördüklərimiz bizi məyus edir.”Cəbhəçi Əli Kərimlinin ailəsinin böyük maliyyə hesabına komfortlu həyat sürdüyünün şahidi kimi bildirir ki, Əli Kərimli, sadəcə, bir partiya sədri deyil, böyük dələduz və hoqqabazdır.

### “Qozbeli qəbir düzəldər”

Belə bir deyim var: “Qozbeli qəbir düzəldər”. Ancaq 28 ildir ki, özlərini “müxalifətçi” və partiya “sədrləri” hesab edən AXCP və Müsavat nə “müxalifətçi” kimi müxalifətçilərdir, nə də “sədr” kimi sədrdilər. AXCP-Müsavat həmişə olduğu kimi, bu gün də nəinki satqınlıqlarını, deyərdim ki, cinayətkarlıqlarını göstərməkdədirlər. Və bu gün bütün dünyanın Azərbaycanın uğurlarına, haqq işinə, Qələbə zəfərinə və nəhayət, AXC-Müsavat cütlüyünün satdıqları torpaqlarımızı “Dəmir yumruq” siyasəti ilə işğaldan azad olunan mədəniyyət mərkəzimiz Şuşamızda qardaş Türkiyə ilə imzalanan Şuşa bəyannaməsinə qısqanclıqla yanaşmaları, bir daha ermənidən pis erməni olduqlarını, növbəti dəfə xain və düşmən mövqeyində olduqlarını isbatladılar. Çünki bu satqınları qəbir də düzəldə bilmədi. 1992-1993-cü illərdən 28-29 il ötsə də, zaman və dövr dəyişsə də, dəyişməyən, yaxud dəyişmək istəməyənlər hələ də həmin dövrdə ilişib qalan satqın AXC-Müsavat bu gün də məqsədi xəyanət, düşmənçilik mövqeyidir. Çünki bu satqınlar Vətən müharibəsi zəfərini həzm edə bilmədikləri kimi, iyunun 15-də imzalanan, bütün dünyanın diqqət mərkəzində olan tarixi Şuşa Bəyannaməsi ilə bağlı siyasi partiyalar həmrəylik nümayiş etdirdi, ancaq yenə də bəyanatla bağlı həsəd apardığı AXCP-Müsavat əsl “simasını”, xislətini nümayiş etdirdi. Bu, təəccüb də doğurmur. Çünki bu xəyanətkarlar Vətən müharibəsində əldə etdiyimiz zəfərlərimiz həzm edə bilməyərək Araik Arutunyan və digərlərini təbliğ etməklə, erməni dəyirmanına su tökmək xidmətlərini davam etdirdilər və bu gün də bu çirkin xislətlərinə əməl etməkdədirlər.

Həmçinin, siyasi partiyaların işğaldan azad olunmuş ərazilərimizə səfər etdikləri halda, Əli Kərimli və Arif Hacılı qoşulmağa cürət etmədi. Çünki bu gün o torpaqlarımızı satan AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti dövründə baş verib. Və AXCP və Müsavat Partiyası erməni vandalizminin, barbarlığının şahidi olmuş Ağdam rayonuna səfərdən imtina etmələrinə müxtəlif bəhanələr də gətirdilər. Arif Hacılı bildirdi ki, guya Ağdam səfəri siyasi oyunun tərkib hissəsidir və buna görə səfərdə iştirakdan, Ağdama digər siyasətçilərlə birlikdə getmək təklifindən imtina edibləр. AXCP-dən də bildirdilər ki, yerli insanların Ağdamdakı vəziyyətdən xəbəri var və ora səfər etmək mənasızdır. Çünki Əli Kərimli, Arif Hacılı və ətrafında olan satqınlar torpaqlarımızın işğaldan azad olunması faktı ilə barışa bilməyən erməni qulbeçələridir. Əli Kərimli, Arif Hacılı kimilər satqın erməni xislətli, zatıqırıqlardır. Bu zatıqırıq, ancaq Azərbaycanın ildırım sürəti ilə, bəli, ildırım sürəti ilə əsrlər boyu görünməyən Qələbə, inkişaf, özü də ildırım sürəti ilə uğurlarımızı görüb daxilləri iylənə-iylənə qalaraq sosial şəbəkələrdə çirkin əməllər sahibi olduqlarını xalqı mitinqə çağırışları edirlər. Həyasızlıq bu qədər? Hansı xalqı mitinqlərə çağırırsınız? Və bu gün 2021-ci il iyunun 15-də - tarixi Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi ilə bağlı Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini ölkələrimizin keyfiyyət baxımından yeni əlaqələrinin inkişafı və hər iki ölkənin gələcək birgə fəaliyyətinin vacib əsası hesab edir və bu yüksək strateji müttəfiqlikdə dövlətimizin yanında olduqları ilə bəyanata imza atdığı halda, yenə də AXCP-Müsavat kollektiv bəyanatla razılaşmayaraq imzasını atmadı.

### Niyə?

48 siyasi partiya Şuşa Bəyannaməsinin imzalanması ilə əlaqədar bəyanat imzaladı. Müsavat başqanı Arif Hacılı isə hadisəyə facebook səhifəsində belə münasibət bildirib: “Türkiyə və Azərbaycanın “üçüncü ölkədən təhlükə olarsa” bir-birini qoruması barədə Şuşa Bəyannaməsi, Şuşada Türkiyə baş konsulluğunun açılması qərarı, iki ölkə arasında imzalanan digər razılaşmalar Azərbaycan-Türkiyə münasibətlərinin möhkəm siyasi iradəyə əsaslanan yeni mərhələsidir. Xalqımız və dövlətlərimiz üçün xeyirli-uğurlu olsun”.

AXCP sədri Əli Kərimli isə sosial şəbəkədə məsələyə bu cür münasibət bildirib: “Azərbaycan-Türkiyə hərbi ittifaqı nəhayət, rəsmiləşdi. Biz hər zaman belə bir ittifaqı zəruri saymışıq. Şuşa Bəyannaməsinə görə “Azərbaycan və Türkiyənin hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə təcavüzün aradan qaldırılması məqsədilə... Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur”.

Göründüyü kimi, istər Əli Kərimli, istər Arif Hacılı hər zaman hər şeylərini erməniyə verən əxlaqsızlıq mənbəyi olan bu satqınlar həmişə kimliklərini dönə-dönə göstəriblər. Bələləri Azərbaycan dövlətinin qüdrətlənməsinə, dünyada söz sahibinə çevrilməsinə qarşı çıxış edən aşkar düşmənlərimiz - ermənilərin nökərləridirlər, daha doğrusu, ermənidən də pis ermənidirlər. Artıq bəsdir! Lazım olan zaman da çoxdan çatıb. Həmin zaman ki, belə xainlər barədə ciddi ölçülər götürülməli zamandır, özü də çox ciddi və bağışlanılmaz ölçü götürülməyin vaxtıdır!!!

**Rəfiqə HÜSEYNOVA**

# Repetitor xidmətində yeni qaydalar necə olacaq?

## Təhsil ekspertlərindən açıqlama



***“Hazırlıqlarda müəyyən sosial məsafənin qorunması və tibbi maskadan istifadə ilə bağlı ümumi bir qərar verilib. Açığı, bu qərar Səhiyyə Nazirliyi tərəfindən irəli sürülüb. Nazirlər Kabinetinin bu barədə qərarı rastıma çıxmayıb. Amma Səhiyyə Nazirliyinin təlimatına əsasən, 15 dəqiqə fasilə ilə repetitorlar müvafiq qruplar arasında interval təyin etməlidirlər”. Bu sözləri SIA-ya açıqlamasında təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi deyib.***

Onun sözlərinə görə, həmçinin, auditoriyada şagird sayına nəzarət olunmalıdır: “Məsələn, bir auditoriyada ara məsafəsi saxlamaq şərti ilə 8-10 nəfər şagird əyləşə bilər. Bu da 1 metr yarım və ya 2 metr bir məsafədir. İndiki dövrdə repititor fəaliyyəti əsasən məktəb şagirdlərini əhatə edir. Lakin yay ayları gəldiyi üçün şagirdlər də, repetitorlar da tətilə çıxırlar. Şagirdlərin repetitor fəaliyyətinə hazırlığı avqust ayının sonu və ya sentyabrın əvvəllərinə təsadüf edəcək. Verilmiş bu qərar bir qədər özündə qeyri-ciddilik daşıyır”.

Elçin Əfəndi sözlərinə belə davam edib: “Bizim şagirdliyimiz hər il tədris ilinin əvvəlindən sonlarına qədər olan dövrdə daha çox inkişaf edir. Həmçinin bu dövrdə repetitorluq da aktiv fəaliyyət göstərir. İndi 3-4 nəfər uşaq repetitor fəaliyyətinə müraciət edirsə, bu da olduqca az saydır və auditoriyada şagirdlərin dərs mənimsəməsində hər hansı bir problem aşkar olunmur. Sırf əhəmiyyət dərəcəsini nəzərə alsaq, bu yoluxmanın artımına görə verilmiş bir qərardır. Amma düşünürəm ki, bir o qədər əhəmiyyət kəsb etmir. Yəni, indiki dövr üçün olduqca əhəmiyyətsiz bir qərardır”.

Məsələ ilə bağlı təhsil eksperti İlqar Orucov da danışıb: “Repetitorluqla bağlı deyərdim ki, hər ölkədə fərqli münasibət var. Fəaliyyət növü və xidmət sahəsi olaraq bu sektorla bağlı münasibətləri tənzimləyəcək qaydalara çox ciddi ehtiyac var”.

“Bütün münasibətlər əlbəttə ki, qanunlara söykənməli və konkret qaydalar çərçivəsində tənzimlənməlidir. Ümid edirəm ki, repetitorluqla bağlı tətbiq olunacaq qaydalar da burdakı hüquqi münasibətləri tənzimləyəcək. Eyni zamanda, repetitorluq fəaliyyəti ilə bağlı tənzimləmələrə və müvafiq qaydalara çox ciddi ehtiyac var. Bu istiqamətdə ciddi boşluqlar var və həll olunmalıdır”.

***Ayşən Vəli***

# “Müxalifətdə hər şeyə pis demək kimi pis vərdişlər yaranıb”

“Şuşada imzalanan bəyannamə böyük bir hadisədir. Belə bir möhtəşəm sənədə imza atılmasına 48 partiyanın içərisində Müsavat və AXCP-nin dəstək verməməsi təəccüb doğurur və bunu qınayıram. Görünür, bu partiyaların xarakteri belədir, ancaq adı çəkilən partiyaların dəstək xarakterli sənədə imza atmalarının istisi, soyuğu yoxdur. Sadəcə olaraq, bu cür addımlarla özləri özlərini cəmiyyətdən kənarlaşdırırlar”. Bunu SIA-ya açıqlamasında AMİP funksioneri Əli Orucov deyib.

Onun sözlərinə görə, AXCP və Müsavat sənədə imzanı atmamaqla özlərinə ziyan edirlər: “Biz xalq olaraq, cəmiyyətin ayrılmaz tərkib hissəsi olaraq siyasi institutlar ölkənin dövlət və milli maraqlarına uyğun olan addımları dəstəkləməliyik və bu istiqamətdə çalışmalıyıq. Dövlətimizin və millətimizin maraqlarına uyğun addımlar atılmalıdır”.

Ə.Orucov onu da bildirib ki, Vətən müharibəsində parlaq qələbəmizə kölgə salmağa çalışmaları gözü götürməzlikdir və yaxud da görünür, onlar üçün milli maraqlar, milli dəyərlər o qədər də önəmli deyil: “Sadəcə olaraq onların hər şeyə pis demək kimi bir pis vərdişləri yaranıb. Bu da heç də yaxşı hal deyil”.

**Gülyana**

# Ermənistan regionda təklənir: Rusiya, Türkiyə və Azərbaycanın maraqları ortaqdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*



### Yuri Mavaşev: "Həm Rusiya, həm Türkiyə, həm də Azərbaycan yaxşı bilir ki, bu gün ortaya çıxan yeni reallıqda ən yaxşısı üç dövlətin hər birinin mənafeyi naminə yaxın əməkdaşlıqdır"

Son günlərdə Azərbaycan-Ermənistan münasibətlərində, həmçinin Azərbaycan-Türkiyə münasibətlərində maraqlı proseslər müşahidə olundu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana, o cümlədən Şuşa şəhərinə səfəri zamanı ölkələr arasında Şuşa Bəyannaməsi imzalandı. Ermənistan öz sərhədlərinin qorunmasında Rusiyadan kömək istədi. Rusiya Şuşa bəyannaməsini dəstəklədiyini bəyan etdi, Ermənistana isə sülh prosesin tənzimlənməsinə üçüncü tərəfləri qarışdırmamağı məsləhət gördü.

### Qarşıdan vacib bir görüş gəlir

Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, yaxın gələcəkdə Rusiya lideri Vladimir Putinlə əhəmiyyətli bir görüş keçirəcəyini açıqladı. Türkiyə rəhbərinin sözlərinə görə, tərəflər Zəngəzur dəhlizinin inşasını müzakirə etməlidirlər. Ərdoğan bu prosesin ləngiməsi üçün bir səbəbinin olmadığına inanır.

"Moskva Zəngəzur dəhlizinin yaradılmasını təxirə salmaq niyyətində deyil. Əksinə, bir dəstək münasibəti var. Bu yaxınlarda Putinlə ikitərəfli görüşümüz olacaq. Beş illik razılaşma çərçivəsində ortaq addımlar atmaq istəyirik"- Ərdoğan deyib.

Eyni zamanda, Türkiyə Prezidenti daha bir vacib açıqlama verərək Cənubi Qafqazdakı vəziyyəti şərh etdi - bu, bütün mina xəritələrinin Azərbaycana verilməsi məsələsidir. Ərdoğan, Ermənistanın bölgədə qarşılıqlı inamı artırmaq üçün addımlar atmalı olduğunu bildirdi. Ərdoğan qedy edib ki, bu istiqamətdə ilk vacib addım mina xəritələrinin Azərbaycana verilməsi ola bilər.

Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuat konfransında təklif olunan Qafqazda Altı Tərəfli Platforma yaratmaq təşəbbüsünü şərh edən Ərdoğan, Tiflis və İrəvanın hələ müsbət bir işarə vermədiklərini, Rusiyanın isə belə bir quruluşun yaradılması tərəfdarı olduğunu söylədi.

"Ermənistan və Gürcüstan təşəbbüsə qoşulsa, bölgəyə sabitlik çox sürətlə gələcək. Türkiyəyə səfərim zamanı bu məsələni Gürcüstanın baş nazirinə izah etdim. Ankara bu platformanı regional sülhə doğru bir addım hesab edir"-deyə o bildirib.

Türkiyə prezidenti, eyni zamanda, Azərbaycanla imzalanan Şuşa Bəyannaməsi çərçivəsində Azərbaycanda Türkiyə Silahlı Qüvvələrinin hərbi bazasının yaradılmasından bəhs edilə biləcəyini də istisna etməyib.

"Bu, bəyannamənin müddəalarından kənara çıxmır. Bu məsələnin inkişafı mümkündür. Bu mövzu Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putin arasındakı məsləhətləşmələr zamanı inkişaf etdirilə bilər. Və danışıqlarımız zamanı ayrıca öz qaydasında həyata keçirilə bilər"- Ərdoğan deyib.

Əlavə edək ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan səfər çərçivəsində Ağdam rayonundakı ortaq Türkiyə-Rusiya monitorinq mərkəzində çalışan türk hərbçiləri ilə də görüş keçirdi. Qeyd edək ki, Rusiya-Türkiyə mərkəzi Qarabağdakı vəziyyəti izləmək üçün bu il yanvarın 30-da açılıb. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi ikigünlük səfəri çərçivəsində Şuşa şəhərini ziyarət etdi və burada Türkiyə ilə Azərbaycan arasında "Müttəfiq münasibətlərinə dair Şuşa Bəyannaməsi"ni imzaladı. Türkiyə prezidenti Azərbaycan Milli Məclisində də çıxış etdi.

### Yuri Mavaşev: Şuşa Bəyannaməsi tərəfdaşlara geosiyasi vəziyyətin dəyişdiyinə bir siqnal oldu

Yeni Türkiyənin Öyrənilməsi Mərkəzinin direktoru Yuri Mavaşev deyir ki, Türkiyə Prezidenti Ərdoğanın Qarabağa və Şuşaya səfəri simvolikdir: "Ərdoğan, azad edildikdən sonra Qarabağı ziyarət edən ilk xarici liderdir. Türkiyə ilə Azərbaycan arasında sürətlə möhkəmlənən qardaşlıq və dostluq əlaqələri göz qabağındadır.

Şuşa Bəyannaməsinin imzalanması 2-ci Qarabağ müharibəsindən sonra daha strateji əhəmiyyət daşıyır və sanki bütün qüvvələrə Azərbaycan və Türkiyənin hər zaman bir-birini dəstəkləyəcəyini bəyan edir. Bu, bölgədəki mövcud geosiyasi vəziyyətdə fərqli oyunçulara bir siqnaldır.

Bəyannamədə hərbi əməkdaşlıqla bağlı bir bənd var. Burada bir tərəfdən hər şey son 30 ildə iki ölkə arasındakı münasibətlərin ümumi inkişafına uyğundur. Digər tərəfdən, maraqlıdır ki, tərəflər Türkiyə və Azərbaycanın ərazi və milli təhlükəsizliyinə təhdid olduğu təqdirdə BMT bazası (birgə qətnamələr) əsasında qarşılıqlı dəstək və koordinasiya şərtlərini irəli sürürlər. Ermənistanın müharibə başlayacağı təqdirdə Türkiyənin Azərbaycana (və ya əksinə) kömək edəcəyi güman edilir. Türkiyəyə qarşı təzyiqlər varsa, Azərbaycan da qoşulacaq. Ölkələr eyni zamanda orduların modernləşdirilməsində, müasir standartlara gətirilməsində bir-birlərinə kömək göstərməyə davam edəcəklər.

Bu gün Türkiyə prezidenti Rusiya prezidenti ilə görüşmək istədiyini açıqladı. Bunun Azərbaycana səfərindən sonra böyük əhəmiyyəti var. Həm Moskva, həm də Ankara bölgədəki vəziyyətin nəbzinə, razılaşmaların tətbiqinin necə irəlilədiyinə dair mövqeyini saxlayır. İndi də Moskva ilə Ankara arasında saatların bu istiqamətdə sinxronizasiyası təbii bir məsələdir.

Həm Rusiya, həm Türkiyə, həm də Azərbaycan yaxşı bilir ki, bu gün ortaya çıxan yeni reallıqda ən yaxşısı üç dövlətin hər birinin mənafeyi naminə yaxın əməkdaşlıqdır. Aydındır ki, çirkli sularda balıq axtarmağa ehtiyac yoxdur və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin möhkəmlənməsi Moskvaya qarşı yönəlməyib.

Türkiyə NATO üzvü olsa da, müstəqil bir ölkədir. Buna görə Rusiyanın Qərblə qarşıdurmaları fonunda- Türkiyənin Rusiya ilə əməkdaşlığı Moskva üçün əlavə üstünlükdür. Həm Moskva, həm də Ankara hər şeyi mükəmməl başa düşür. Burada konstruktiv qarşılıqlı fəaliyyət hər kəsə fayda gətirəcək".

### Sərhəddə çətin vəziyyət

Dünən səhər Rusiya və Ermənistanın müdafiə idarələrinin rəhbərləri Sergey Şoyqu və Vaqarşak Harutyunyan arasında telefon danışığı olub və danışıqlar zamanı Azərbaycanla Ermənistan arasındakı sərhəddə gərginliyin azalmasına baxmayaraq, çətin vəziyyətin həlli yolları müzakirə edilib. Arutyunyan qeyd edib ki, erməni tərəfinin mövqeyi dəyişməzdir və İrəvan tərəfdaş dövlətlərin strukturlarının məsələni sülh yolu ilə həll etmək çağırışlarına hörmətlə yanaşır.

Tərəflər, həmçinin Rusiya sərhədçilərinin Ermənistan-Azərbaycan sərhədinin Sünik və Qeqarkunik bölgələrindəki hissələrinə yerləşdirilməsi məsələsini müzakirə ediblər. Ermənistanın Baş Naziri vəzifəsini müvəqqəti icra edən Nikol Paşinyan Rusiya tərəfinin nümayəndələrinin Ermənistan-Azərbaycan sərhədindəki yerləşə biləcəkləri əraziləri artıq araşdırdıqlarını bildirdi. Paşinyan sərhəd probleminin sülh yolu ilə həll olunacağına əmindir. Eyni zamanda, yenə də "Azərbaycan öz qoşunlarını Ermənistan ərazisindən çıxarmalıdır"-deyə israr edir.

Bu vaxt Azərbaycan hərbçiləri, Ermənistanla sərhədin müəyyənləşdirilməsi prosesi çərçivəsində daha çox mühəndis istehkamları tikməyə davam edirlər. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə "İrəvan sülh istəyirsə, dövlət sərhədinin delimitasiyası ilə bağlı Bakı ilə danışıqlara başlamalıdır"- deyib.

### Gərginliyi azaltmaq mümkün oldu

Rusiya bildirir ki, son həftələrdə Ermənistanla Azərbaycan arasındakı sərhəddəki gərginliyi azaltmağa nail olub. Bunu cümə axşamı brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova söylədi.

"Son həftələrdə gərginliyi ümumiyyətlə, azaltmaq mümkün oldu. Sərhəd mübahisəsinin tənzimlənməsi ilə bağlı müvafiq məsləhətləşmələr davam edəcək" - o dedi.

Zaxarova, Rusiyanın vəziyyəti gərginləşdirməməyə yönəlmiş aktiv vasitəçilik səylərini göstərməyə davam etdiyini qeyd etdi. "Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və sərhəd xidmətləri vasitəsilə Bakı və İrəvanla sıx koordinasiya yaradıldı", - deyə diplomat əlavə edib.

"Problemin davamlı və uzunmüddətli həlli olaraq, iki ölkə arasındakı sərhədin delimitasiyası ilə əlaqədar sonrakı demarkasiya ilə bağlı işlərin ən erkən başlanğıcını görürük. Bu prosesə ən aktiv şəkildə yardım göstərməyə hazır olduğumuzu təsdiqləyirik"- Zaxarova bildirib.

Zaxarova, həmçinin bir gün əvvəl Şuşa şəhərində Türkiyə və Azərbaycan başçıları tərəfindən imzalanan ölkələr arasındakı müttəfiq münasibətlərinə dair Şuşa bəyannaməsi ilə bağlı Moskvanın rəsmi mövqeyini dilə gətirdi.

"Azərbaycan və ya Ermənistanın ikitərəfli münasibətlərini, Dağlıq Qarabağ ilə bağlı məsələni üçüncü tərəflərlə qarışdırmağı düzgün hesab etmirik. Son zamanlarda Azərbaycanla Türkiyə arasında yüksək səviyyəli təmasları bu əsasda qiymətləndiririk. Hərbi əlaqələr də daxil olmaqla bölgədəki ikitərəfli münasibətlərin digər dövlətlərə qarşı qurulmamalı olduğuna inanırıq. İrəvan-Ankara dialoqu da daxil olmaqla, Bakı ilə İrəvan arasındakı dialoqun normallaşdırılmasına yönəlmiş bütün addımları dəstəkləyirik. "Cənubi Qafqazdakı əməkdaşlıq mehriban qonşuluq prinsipləri və əlbəttə ki, bölgədəki bütün ölkələrin maraqları nəzərə alınaraq inkişaf etməlidir"- Rusiya XİN nümayəndəsi bildirib.

Göründüyü kimi, Azərbaycanın, Türkiyənin, Rusiyanın regionda gedən proseslərdə və perspektiv əməkdaşlıq planları barədə 3 ölkənin- maraqları üst-üstə düşür. Ermənistan isə təklənir və getdikcə daha ümidsiz vəziyyətə düşür. Bu halda İrəvanın yeganə yolu qalırsülh planına tabe olmaq, təklif olunan əməkdaşlıq formatlarında iştirak etmək. Əks halda, həm siyasi, həm iqtisadi, həm sosial fəlakət qaçılmazdır.

*Elçin Bayramlı*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

19 iyun

# Nobel mükafatı necə yaranıb?




***Mükafatın yaradılma səbəbi, Alfred Nobelin özü haqqında qəzetdə gördüyü bir başlıq olub. SIA xarici mətbuata istinadən xəbər verir ki, qardaşı Lüdviq Nobelin ölüm xəbərini fransalı jurnalist səhv anlayaraq Alfred Nobelin ölümü kimi başa düşüb. Bununla bağlı öz məqaləsində bu xəbəri “Ölüm taciri dünyasını dəyişdi” kimi təqdim edib. Jurnalistin Nobeli “ölüm taciri” adlandırmasının səbəbi isə dinamitin kəşfi olub.***

Alfred Nobel məlum olduğu kimi bu partlayıcı maddəni kəşf etmiş və bunun satışından da xeyli gəlir əldə etmişdir. Bu səbəblərdən dolayı o dövrlərdə Nobelə “ölüm taciri” ləqəbi qoyulub. Bu pis şöhrətdən qurtulub arxasında yaxşı bir miras qoymaq adına Alfred Nobel vəsiyyətnamə yazaraq sərvətinin böyük qisminin öz adına mükafatın tərtib edilməsi üçün ayrılmasını vəsiyyət edir.

***Ayşən Vəli***

# Saçında kəpək problemi olanlar - BİLMƏNİZDƏ FAYDA VAR

***Saçınızda kəpək problemi varsa bu məqaləni mütləq oxuyun. SIA xəbər verir ki, hətta ciddi dərəcə illərlə kəpək problemi olan insanlara məsləhət görülür.***



### 1-ci üsul sirkəli su

Alma sirkəsi saçqıranlara qarşı ən gözəl vasitələrdən biridir. Suya azca sirkə əlavə edin. Qorxmayın iyi uçur gedir. Saçı gec yağlandırır. Kəpəyi dərindən təmizləyir. Sağlam uzanmağına kömək olur.

### 2-ci üsul aspirin

Aspirini və limonu əzərək səpkilərin qurudulmasında istifadə olunur. Araşdırandan sonra saç uzatmaqda və kəpəyə son verməkdə gözəl bir metod olduğu görülür. Hər dəfə duş qəbul edəndə 3 aspirini əzərək şampununuza əlavə edin və saçınızda 10 dəqiqə masaj edərək saxlayın. Zamanla bütün kəpəyin yox olduqunu görəcəksiniz. Saç uzatmağa maska edib saatlarca gözləməyə səbri olmayanlar bu üsuldan istifadə edə bilərlər.

***Ayşən Vəli***

# Təsbehin yaranma tarixi



Təsbeh sözü ərəb dilində “subha” kəliməsindən (“Sübhanallah” sözünün qısaldılmış forması) törəyib. SIA xarici mətbuata istinadən xəbər verir ki, müsəlmanlarda 11,33 və 99 muncuqdan, buddistlərdə 108 muncuqdan, xristianlarda isə ilk vaxtlar 33 muncuqdan ibarət olub.

Əfqanlar ona “tisba”, tatarlar isə “dispe” deyirlər. Lakin ortaq cəhət budur ki, bu sözlərin hamısının tərkibində “s-b-h” hərf birləşməsi mövcuddur və ərəbcə mənası Allahı mədh etmək, tərifləmək deməkdir. Müsəlman dünyasında təsbehdən istifadənin yaranma tarixçəsi haqqında tədqiqatçılar, əsasən, iki fikir yürüdürlər. Birincilər belə hesab edirlər ki, bir neçə hədisdə təsbeh haqqında az da olsa məlumat verilmiş və Həzrət Peyğəmbərin (s) bununla bağlı müəyyən təlimatları olub. Lakin bu fikir təsdiqini tam tapmamış və onа əks qüvvətli dəlillər gətirib. Hətta, dörd raşidi xəlifələr dövründə təsbeh haqqında hər hansı məlumata rast gəlinməyib.

# Qızmar günəş altında gəzənlərə XƏBƏRDARLIQ!



“Hər kəs yay ayları müddətində maksimum dərəcədə günəş şüalarından faydalanmağa çalışır”. Bu sözləri SIA-ya açıqlamasında həkim-kosmetoloq Aysu Əhmədli deyib. Onun sözlərinə görə, pandemiya dövründə virus bakteriyalara qarşı mübarizədə necə də kömək olduğunu bilərək maksimum dərəcədə qəbul etməyə çalışır: “Ümumiyyətlə günəş şüaları orqanizmdə qida ilə qəbul etmədiyimiz D vitaminimizi zənginləşdirməyə kömək edir. D vitamini sümüyün inkişafı üçün və sağlam əzələ quruluşu üçün çox faydalıdır. Bundan əlavə günəş şüaları böyrək və qaraciyərə öz təsirini göstərir. Ən əsası enerji verir və yorğunluğu azaldır. Xoşbəxtlik hormonu olan serotanin miqdarını artırır. Əsasən körpələr üçün günəş şüasının xeyri çoxdur. Orqanizmdə kalsium miqdarını artırmaqla bədən quruluşunun düzgün formaya salınmasına kömək edir. Bundan əlavə orqanizmin müqavimətini gücləndirir”.

Aysu Əhmədli həmçinin qeyd edib ki, günəş şüasının müsbət tərəfləri olduğu kimi, mənfi tərəfləri də var: “İlk növbədə onu nəzərə almaq lazımdır ki, günəş şüası dəridə olan kolagen və elastin liflərinin miqdarının azalmasına təsir edir. Bu da dəridə qırışların yaranmasına səbəb olur. Həddindən artıq günəş altında qalmaq dəri xərçənginin yaranmasına səbəb ola bilər. Ümumiyyətlə açıq dərili insanların günəş altında çox qalmağı məsləhət görülmür. Həddindən artıq qızmar günəşin altında qalmaq günvurma, istilik vurma hadisələri ilə nəticələnə bilər. Qızmar günəş altında olarkən çoxlu su içmək və yüksək dərəcədə “spf” tərkibli kremlər istifadə etmək məsləhət görülür. Bundan əlavə yayın atributları olan eynək və papaqdan istifadə edilməlidir”.

# DİN-dən vatsap dələduzluqları ilə bağlı vətəndaşlara XƏBƏRDARLIQ




**Daxili İşlər Nazirliyi (DİN) vatsap dələduzluqları ilə bağlı vətəndaşlara xəbərdarlıq edib. DİN-dən SIA-ya daxil olan xəbərdarlıqda deyilir: “Son dövrlər dələduzluqla məşğul olan bəzi şəxslərin sosial media və elan saytları üzərindən ticarət edən vətəndaşların satışa çıxardığı məhsulları guya almaq məqsədilə özünün ölkədə olmadığını, həmçinin uzaq məsafədə olduğunu əsas gətirərək ödənişi onlayn yolla edəcəyini bildirib bank kartı məlumatlarının əldə edilməsi hallarına rast gəlinməkdədir.**

**Belə ki, həmin dələduzlar vətəndaşlara xüsusilə saxta xarici nömrələrdən zənglər edərək və vatsap asitəsilə yazaraq guya alacağı məhsulun ödənişini etmək məqsədilə onların şəxsi bank kart məlumatlarının əldə edirlər. Daha sonra onlar vətəndaşların bank kartlarındakı məlumatları, yəni kart sahibinin adı, soyadı, kartın son istifadə tarixi, CVV nömrəsi və təsdiq kodunu (“3D secure”) əldə etməyə çalışırlar. Həmin məlumatları əldə edəndən sonra dələduzlar tərəfindən kart sahiblərinin xəbərləri belə olmadan onların hesablarından onlayn ödənişlər həyata keçirilir və vəsaitlər mənimsənilir.**

**Bir daha vətəndaşları onlayn alış-veriş zamanı diqqətli olmağa çağırır və kibercinayətkarlıqla üzləşdikləri təqdirdə DİN-in “102 - Zəng Mərkəzi”nə məlumat vermələrini xahiş edirik”.**

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600